# BAKI-AŞQABAD MÜNASİBƏTLƏRİNDƏ YÜKSƏLİŞ




Son illərdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ikitərəfli münasibətləri sürətlə inkişaf edir. Baş tutan qarşılıqlı səfərlər zamanı əldə olunan razılaşmalar əməkdaşlıq müstəvisini sürətlə genişləndirir. Həftənin əvvəlində reallaşan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri də Bakı ilə Aşqabad arasında dərinləşməkdə olan qarşılıqlı əməkdaşlığın göstəricisi kimi dəyərləndirilir.

Səfər çərçivəsində prezidentlər Füzuli və Şuşaya da gediblər. Dövlət başçıları Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar. Qonağa Türkmənistan tərəfindən Füzulidə inşa olunan məscid barədə məlumat verilib. Məscidin hər biri 40 metrdən ibarət iki minarəsi olacaq. Məsciddə 500 nəfər ibadət edə biləcək. Şuşada prezidentlər burada inşa edilmiş birinci yaşayış kompleksində olublar, Şuşa məscidində tikinti işlərinin gedişi ilə maraqlanıblar.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

26 İYUN CÜMƏ 2026 № 23 (4274) Qiyməti - 60 qəpik www.kaspi.az



## AZƏRBAYCANIN QALİB, ŞANLI SİLAHLI QÜVVƏLƏRİ ÖZÜNÜN 108 YAŞINI QEYD EDİR

# MÜSTƏQİLLİYİMİZİN ETİBARLI TƏMİNATÇISI

Bu gün Azərbaycan Ordusu müasir maddi-texniki bazaya, peşəkar zabit heyətinə, yüksək və vətənpərvər döyüş ruhuna, zəngin hərbi təcrübəyə malikdir. Ordumuz 44 gün ərzində torpaqlarımızda separatizmin kökünü kəsib.

### MÜSTƏQİL SİYASİ KURSUN SARSILMAZ DAYAĞI

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil siyasi kursun ən böyük dayaqlarından biri də Ordumuzdur. Müzəffər Ali Baş Komandanın ərazi bütövlüyümüzün bərpası ilə bağlı qarşıya qoyduğu vəzifəni geri addım atmadan sonuna qədər şərəflə, peşəkarcasına və böyük vətənpərvərlik ruhu ilə yerinə yetirən Azərbaycan Silahlı Qüvvələridir. Məhz bu reallıqdan çıxış edərək bu gün Silahlı Qüvvələrin daha da inkişaf etdirilməsi və maddi-texniki bazasının gücləndirilməsi dövlətimizin başlıca prioritetlərindəndir.



SƏHİFƏ 4-də

### CƏNUBİ QAFQAZIN ƏN QÜDRƏTLİ ORDUSUYUQ

44 günlük Vətən müharibəsində əldə edilən təcrübə, çoxsaylı beynəlxalq təlimlər, strateji müttəfiqlərimizlə aparılan qarşılıqlı təcrübə mübadiləsi Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü silahlı qüvvəsinə çevirib. 2026-cı il üzrə hərbi gücün "Global Firepower" reytinqinin məlumatlarına əsasən, Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında 60-cı yerdə qərarlaşıb. Reytinq çərçivəsində 145 ölkənin hərbi güc indeksinin hesablanması üçün 60-dan çox amil qiymətləndirilir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## Xankəndi, Xocalı və Ağdərəyə növbəti köç

Xankəndi şəhəri, Xocalı və Ağdərə rayonunun bir sıra yaşayış məntəqələrinə 44 ailə qayıdıb. "Report" xəbər verir ki, bu barədə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb. Qeyd olunub ki, bu mərhələdə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə 8 ailə olmaqla 34 nəfər, Xocalı rayonunun Ballıca kəndinə 2 ailə, 7 nəfər, Badara kəndinə 2 ailə, 5 nəfər, Xanabad kəndinə 2 ailə, 5 nəfər köçürülüb.

Eyni zamanda Ağdərə rayonunun Həsənriz kəndinə 53 nəfərdən ibarət 13 ailə, Çıldıran kəndinə də 13 ailə olmaqla 53 nəfər, Vəngli kəndinə isə 4 ailə - 23 nəfər köç edib. Sakinlər yaşayış məntəqələrində qarşılanaraq yeni mənzillərinin açarlarını təhvil alıblar. Köçürülən ailələr indiyədək respublikanın müxtəlif bölgələrində, əsasən yataqxanalarda, sanatoriyalarda və inzibati binalarda müvəqqəti məskunlaşmış vətəndaşlar olub. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri davam etdirilir, əhalinin rahat və təhlükəsiz yaşayışı üçün zəruri infrastruktur yaradılır.



## Azərbaycandan Suriyaya önəmli dəstək

Azərbaycan Suriyada 10 məktəbin yenidən inşasına, daha 100-nün isə bərpasına dəstək verəcək. "Report" xəbər verir ki, bunu Suriya parlamentinin hələbli deputatı Tarık Sulo Cevizci "Körpü" Türkman İrsi Araşdırmaları Mərkəzi İctimai Birliyinin təşkilatçılığı, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin tərəfdaşlığı ilə keçirilən II "Türkman irsi: vətəndaş cəmiyyətlərinin həmrəyliyi" adlı forumda deyib. Onun sözlərinə görə, Azərbaycan bir çox sahələrdə Suriyanın yanında olub: "Azərbaycan Suriyada yeni dövrün başlamasından sonra yeni rəhbərliklə əlaqə quran ilk ölkələrdən biri olub. Diplomatik nümayəndələrini Suriyaya göndərərək əməkdaşlığı inkişaf etdirməyə hazır olduğunu nümayiş etdirib. Azərbaycanın humanitar yardımları müharibə fəlakətlərin aradan qaldırılmasına mühüm töhfə verib. Azərbaycan Suriyada iqtisadi, mədəni və sosial sahələrdə də ölkənin yanında olub. Xüsusilə enerji sahəsində göstərilən dəstək Suriyanın bərpasına töhfə verib".

# İSLAM DÜNYASININ PARLAMENTARİLƏRİ BAKIDA




### İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının sədrliyi İndoneziyadan Azərbaycana keçib.

İyunun 24-25-də Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası keçirilib. Açılış mərasimində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqının sədrliyi İndoneziyadan Azərbaycana keçib.

**MÜSƏLMAN ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR PRİORİTETDİR**

Milli Məclisin sədri, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının sədri Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, müsəlman ölkələri ilə həm ikitərəfli əsasda, həm də ortaq təşkilatlarımız çərçivəsində münasibətlərin inkişafı ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və ona üzv dövlətlər ərazilərimizin işğalı dövründə, eləcə də münaqişədən sonra hər zaman Azərbaycanla həmrəy olduqlarını ifadə ediblər. O bildirib ki, son 30 ildə İƏT və İƏT Parlament İttifaqı tərəfindən Ermənistanın təcavüzünü pisləyən, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən çoxsaylı qərarlar və qətnamələr qəbul edilib.

İttifaqın baş katibi Muhammed Xuraýçi Niyass İslam dünyasında dayanıqlı və inklüziv inkişafın təşviqi məqsədilə keçirilən konfransa göstərdiyi yüksək himayəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.

### "BEYNƏLXALQ ƏDALƏT SİSTEMİNDƏ UÇURUM DƏRİNLƏŞİR"

Baş katib vurğulayıb ki, bu, Prezident İlham Əliyevin İslam əməkdaşlığına verdiyi dəyərin bariz nümunəsidir. Eyni zamanda, Bakının bu cür genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üçün etibarlı və fəal rolunu bir daha nümayiş etdirir. O qeyd edib ki, bu tədbir son dərəcə mürəkkəb bir dövrdə baş tutub. Beynəlxalq ədalət sistemində uçurum dərinləşir, İslam aləmi isə ciddi çağırışlarla üz-üzədir. Dağıdıcı müharibələr xalqları tükəndirir, qlobal ərzaq təhlükəsizliyinə və enerji təminatına birbaşa təsir göstərir. Bu səbəbdən münaqişə və müharibələrin bütün formalarının rədd edilməsi zəruridir. Fikir ayrılıqlarının həllində dialoqdan ən optimal vasitə kimi istifadə olunması vacibdir.

İyunun 25-də Milli Məclis sədrinin müavini Rafael Hüseynovun sədrliyi ilə keçirilən iclasın bağlanış mərasimində İƏT Parlament İttifaqı komitələrinin hesabatları, Bakı Bəyannaməsi müzakirə edilib.



### YEKUN OLARAQ BAKI BƏYANNAMƏSİ QƏBUL EDİLDİ

Müzakirələrin yekununda 28 maddədən ibarət Bakı Bəyannaməsi və digər sənədlər qəbul edilib.

Bəyannamədə bildirilir ki, tədbir iştirakçıları Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin və beynəlxalq hüququn məqsəd və prinsiplərinə sadiqliyi bir daha təsdiq ediblər. Qeyd olunub ki, İƏT Parlament İttifaqı parlamentlərarası əməkdaşlığın gücləndirilməsinə, ortaq dəyərlərin təşviqinə, dialoqun, qarşılıqlı anlaşmanın və qlobal çağırışların həllində birgə fəaliyyətin inkişafına töhfə verməyə davam edəcək.

Bəyannamədə Fələstin məsələsinin bütün İslam ümməti üçün mərkəzi əhəmiyyət daşıdığı və Fələstin xalqının hüquqlarına dəstək qeyd olunub. Sənəddə həmçinin artmaqda olan islamofobiya ilə bağlı dərin narahatlıq ifadə edilib, din və ya etiqad zəminində törədilən bütün zorakılıq aktları, nifrət nitqi və dini ayrı-seçkilikdən qaynaqlanan ekstremizm qətiyyətlə pislənilib. Sessiya iştirakçıları beynəlxalq ictimaiyyəti milli və qlobal səviyyədə ekstremizm, nifrət nitqi, dinlərin təhqiri, mənfi stereotipləşdirmə və insanların dininə, etiqadına və ya etnik mənsubiyyətinə görə damğalanması ilə mübarizə aparmaq üçün təsirli tədbirlər görməyə çağırıblar. Bəyannamədə Kipr türk müsəlmanlarının öz ayrılmaz hüquqlarını təmin etmək istiqamətində səylərinə dəstək bildirilib. Kipr probleminin danışıqlar yolu ilə, qarşılıqlı məqbul, ədalətli, davamlı və uzunmüddətli həllinin tapılmasının vacibliyi vurğulanıb. Həmçinin onlara tətbiq edilən ədalətsiz təcridin aradan qaldırılması məqsədilə Kipr türk müsəlmanları ilə əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyəti qeyd edilib.

# BAKI-AŞQABAD MÜNASİBƏTLƏRİNDƏ YÜKSƏLİŞ

Türkmənistan Prezidentinin Azərbaycana səfəri tək ikitərəfli münasibətlər kontekstində yox, həm də regional iqtisadi əməkdaşlıq və Türk dünyasının inteqrasiyası baxımından mühüm əhəmiyyətə malikdir. Hər iki ölkənin nəqliyyat və logistika sahəsində əməkdaşlıq üçün geniş perspektivləri var.



F.ABASOĞLU

Son illərdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ikitərəfli münasibətləri sürətlə inkişaf edir. Baş tutan qarşılıqlı səfərlər zamanı əldə olunan razılaşmalar əməkdaşlıq müstəvisini sürətlə genişləndirir. Həftənin əvvəlində reallaşan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri də Bakı ilə Aşqabad arasında dərinləşməkdə olan qarşılıqlı əməkdaşlığın göstəricisi kimi dəyərləndirilir.

### TÜRKMƏNİSTANA "DOSTLUG" TANKERİ HƏDİYYƏ EDİLDİ

Qeyd edək ki, səfər çərçivəsində Sərdar Berdiməhəmmədov azərbaycanlı həmkarı İlham Əliyevlə görüşüb, tərəflər dövlətlərarası münasibətlərin mövcud durumu, gələcək perspektivlər və əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar. Prezident İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iştirakı ilə "Dostlug" neftdaşıyan tankerinin onlayn formatda hədiyyə olunması mərasimi keçirilib. Azərbaycan tərəfindən Türkmənistana hədiyyə edilən "Dostlug" neftdaşıyan tankeri Bakı gəmiqayırma zavodunda inşa olunub.

### "QARŞILIQLI FƏALİYYƏTİMİZİ DƏRİNLƏŞDİRMƏYƏ ÇALIŞIRIQ"

Tərəflər mətbuata birgə bəyanatla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, münasibətlərimiz möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub: "Bakı və Aşqabad Arkadağ və Füzuli kimi, qardaş şəhərlərdir. Bütün bunlar bizim birliyimizin nümayişidir. Əməkdaşlığımızı konkret məzmunla zənginləşdirməyə və qarşılıqlı fəaliyyətimizi dərinləşdirməyə çalışırıq".

Dövlət başçısı qeyd edib ki, Azərbaycan və Türkmənistanın nəqliyyat-logistika sahəsində əməkdaşlığı geniş bir coğrafiya üçün strateji əhəmiyyətə malikdir.

İkitərəfli əməkdaşlığın hazırkı səviyyəsinin yüksək qiymətləndirildiyini qeyd edən Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ölkələrimiz arasında münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı prinsiplər əsasında dinamik və ardıcıl şəkildə inkişaf etdiyini məmnunluqla vurğulayıb.

## Prezidentlərin Füzuli və Şuşaya səfəri

Səfər çərçivəsində prezidentlər Füzuli və Şuşaya da gediblər. Dövlət başçıları Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar.

Ali qonağa Türkmənistan tərəfindən Füzulidə inşa olunan məscid barədə də məlumat verilib. Məscid kompleksinin ümumi ərazisi bir hektardan çoxdur. Məscidin hər biri 40 metrdən ibarət iki minarəsi olacaq. Məsciddə eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

Şuşaya səfər çərçivəsində isə prezidentlər burada inşa edilmiş birinci yaşayış kompleksində olublar, Şuşa məscidində tikinti işlərinin gedişi ilə maraqlanıblar. İlham Əliyev və Sərdar Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar.

Dövlət başçıları Şuşada Cıdır düzündə də olublar. Prezident İlham Əliyev burada Türkmənistan dövlətinin başçısına "Mərd" adlı Qarabağ atını hədiyyə edib.



### GENİŞ COĞRAFİYAYA TƏSİR EDƏN MÜNASİBƏTLƏR

Xatırladaq ki, Türkmənistan Prezidentinin Azərbaycana səfəri tək ikitərəfli münasibətlər kontekstində yox, həm də regional iqtisadi əməkdaşlıq və Türk dünyasının inteqrasiyası baxımından da mühüm əhəmiyyətə malikdir. Hər iki ölkənin nəqliyyat və logistika sahəsində əməkdaşlıq üçün geniş perspektivləri var. Bir tərəfdən, Orta Dəhlizin genişlənməsi, digər tərəfdən Xəzəryanı dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi bu sahədə yeni imkanlar yaradır.

Bu proses, eyni zamanda, Türk dünyasında inteqrasiyanın güclənməsinə və qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.

Bakı-Aşqabad təmasları tək Türk dünyasında yox, həm də Qərbdə diqqətlə izlənilir. Çünki hər iki ölkə həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinin perspektivlərini müəyyənləşdirən əsas mənbələrdən sayılır. Son zamanlarda yenidən gündəmə gələn Trans-Xəzər layihəsinin reallaşması perspektivləri böyük ölçüdə Bakı və Aşqabadda veriləcək qərarlardan asılıdır. Bu baxımdan, Azərbaycan və Türkmənistan arasında münasibətlərin daha da inkişaf etməsi, dərinləşməsi və əməkdaşlıq platformasında strateji sahələrin daha çox yer alması çox böyük coğrafiyada geosiyasi və geoiqtisadi proseslərə birbaşa təsir etmək gücündədir.

## Qarşılıqlı sənədlər və ticarət dövriyyəsi

Qarşılıqlı münasibətlərin əsasını təşkil edən və bu əlaqələri hüquqi müstəvidə gücləndirən ikitərəfli müqavilələr də mühüm əhəmiyyət daşıyır. Bu baza olduqca genişdir və çoxistiqamətliliyi ilə seçilir. İndiyədək müxtəlif sahələri əhatə edən 108 ikitərəfli sənədin imzalanması əməkdaşlığın institusional əsaslarını möhkəmləndirib. Son səfər çərçivəsində imzalanan sənədlərlə bu hüquqi baza daha da zənginləşdirilib.

Azərbaycan-Türkmənistan əməkdaşlığında iqtisadi amil də mühüm əhəmiyyətə malikdir. Burada qarşılıqlı ticarət dövriyyəsi ilə yanaşı, nəqliyyat-logistika sahəsində birgə səylər də önəmli rol oynayır. 2025-ci ilin yekunlarına görə, iki ölkə üzərindən keçən tranzit yüklərin həcmi 15 faiz artaraq 2,344 tona çatıb. Keçən il tərəflər arasında ticarət dövriyyəsinin ümumi dəyəri 208,39 milyon dollar təşkil edib. 2026-cı ilin yanvar-aprel aylarını əhatə edən ilkin dövrdə isə bu rəqəm 29,54 milyon dollar olaraq qeydə alınıb.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# MÜSTƏQİLLİYİMİZİN GÜCLÜ VƏ ETİBARLI TƏMİNATÇISI

Bu gün Azərbaycan Ordusu müasir maddi-texniki bazaya, peşəkar zabit heyətinə, yüksək və vətənpərvər döyüş ruhuna, zəngin hərbi təcrübəyə malikdir. Ordumuz 44 gün ərzində torpaqlarımızda separatizmin kökünü kəsib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Qalib Azərbaycan Ordusu bu gün özünün 108 yaşını qeyd edir. O Ordu ki, 44 gün ərzində 30 illik işğala son qoydu, bir gündə əzəli torpaqlarımızda separatizmin, terrorun mənbəyini qurutdu. 108 illik şanlı yol özünün enişli-yoxuşlu axarı ilə seçilir. Lakin bu gün heç bir qüvvənin dəyişdirə bilməyəcəyi bir həqiqət var. Müstəqil, güclü Azərbaycan dövlətinin təhlükəsizliyi, suverenliyi, sərhədlərinin toxunulmazlığının əsas qarantı məhz qalib statusunu daşıyan müzəffər Silahlı Qüvvələrimizdir.

### MÜSTƏQİL SİYASİ KURSUN ƏN BÖYÜK DAYAQLARINDAN BİRİ

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil siyasi kursun ən böyük dayaqlarından biri də Ordumuzdur. Müzəffər Ali Baş Komandanın ərazi bütövlüyümüzün bərpası ilə bağlı qarşıya qoyduğu vəzifəni geri addım atmadan sonuna qədər şərəflə, peşəkarcasına və böyük vətənpərvərlik ruhu ilə yerinə yetirən Azərbaycan Silahlı Qüvvələridir. Məhz bu reallıqdan çıxış edərək bu gün Silahlı Qüvvələrin daha da inkişaf etdirilməsi, peşəkarlığının artırılması və maddi-texniki bazasının gücləndirilməsi dövlətimizin başlıca prioritetlərindəndir.

Bu missiyanı ən vacib məqamlardan birinə çevirən şərtlər həm də bölgəmizdə, sərhədlərimizə yaxın coğrafiyada yaşanan gərginliklər, artan münaqişələr və hərbi toqquşmalardır. Geosiyasi kataklizmlər fonunda Azərbaycana qarşı meydana çıxa biləcək çağırışlar və təhdidlərin qarşısını almaq, bu niyyətdə olanların planlarını pozmaq üçün ən təsirli vasitə məhz güclü, peşəkar və müasir maddi-texniki bazaya malik Silahlı Qüvvələrin mövcudluğudur.

### ARTAN HƏRBİ BÜDCƏ

Bunun məntiqi nəticəsi olaraq dövlət büdcəsindən Ordumuzun inkişafı və təminatına ayrılan xərclər hər il artırılır. Hərbi büdcə tək müdafiə qabiliyyəti və maddi texniki bazanın inkişafı demək deyil. Buraya Silahlı Qüvvələrin şəxsi heyətinin sosial-iqtisadi durumunun yaxşılaşdırılması, mənəvi-psixoloji hazırlığın ən yüksək səviyyədə təşkili və digər çox mühüm istiqamətlər də daxildir. Həyata keçirilən islahatlar hazırda Azərbaycan Ordusunun bütün bölmələrinin vahid orqanizm kimi peşəkar fəaliyyətini şərtləndirir.

### CƏNUBİ QAFQAZIN ƏN GÜCLÜSÜ

44 günlük Vətən müharibəsində əldə edilən təcrübə, çoxsaylı beynəlxalq təlimlər, strateji müttəfiqlərimizlə aparılan qarşılıqlı təcrübə mübadiləsi Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü silahlı qüvvəsinə çevirib. 2026-cı il üzrə hərbi gücün "Global Firepower" reytinqinin məlumatlarına əsasən, Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasında 60-cı yerdə qərarlaşıb.

Reytinq çərçivəsində 145 ölkənin hərbi güc indeksinin hesablanması üçün 60-dan çox amil qiymətləndirilir. Bu amillərə ölkənin maliyyə vəziyyəti, coğrafi mövqeyi, logistika imkanları və digər göstəricilər daxildir. Burada Azərbaycan Ordusunun döyüş təcrübəsinin hələ də dünyanın aparıcı hərbi universitetlərində ciddi şəkildə araşdırıldığı amilini də xüsusi vurğulamaq yerinə düşər.

### HƏRBİ-TEXNİKİ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNƏN COĞRAFİYASI

Silahlı Qüvvələrin inkişafında maddi-texniki baza amili böyük önəm kəsb etməkdədir. Son illərdə ölkə rəhbərliyinin elan etdiyi prioritetlərə uyğun olaraq bu sahədə də ciddi addımlar atılır. Azərbaycanın hərbi-texniki əməkdaşlıq vektorları hazırda özünün çoxistiqamətliliyi ilə seçilir. Böyük Britaniya, İtaliya, ABŞ ilə yanaşı, Çinlə də bu istiqamətdə uğurlu əməkdaşlıq modeli qurulub. Türkiyə, Pakistan, İsrail və digər strateji müttəfiqlərlə hərbi-texniki əməkdaşlıq platforması daha da dərinləşdirilib. Bu gün Azərbaycan Ordusunun inventarında sözügedən ölkələrin 5-ci nəsil müharibə doktrinasına uyğun istehsal edilən ən müasir silah texnologiyaları yer alır. Hava Hücumundan Müdafiə sistemləri, pilotsuz uçuş aparatları və zərbə dronları, artilleriya sistemləri, raket sistemləri və sair sahib olduqlarımızın çox kiçik bir qismidir.

### YERLİ MÜDAFİƏ SƏNAYESİ İNKİŞAF EDİR

Təbii ki, bu istiqamətdə yerli müdafiə məhsullarının da rolu əhəmiyyətli dərəcədə artıb. Azərbaycan peşəkar ordu quruculuğu prosesində Silahlı Qüvvələrin yerli təyinatlı məhsullarla təmini səviyyəsinin artırılmasını da prioritet elan edib. Yerli müdafiə sənayesi də müasir innovativ texnologiyalar əsasında müasir dövrün hərbi çağırışlarına cavab verəcək səviyyədə qurulub. Bu proses artıq davamlı mahiyyət daşımaqdadır. Yerli istehsal gücünün artırılması Azərbaycan Ordusunun manevr imkanlarını genişləndirir və lazımi anda təchizat kanalları ilə ən yüksək səviyyədə təmininə şərait yaradır.

Beləliklə, 108 illik inkişaf yolunda Azərbaycan Ordusu özünün ən çətin missiyasını - ərazilərimizin işğaldan azad olunması və suverenliyimizin bərpası vəzifəsini uğurla yerinə yetirərək qalib xalqın qalib Ordusu statusunu əldə etdi. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının Silahlı Qüvvələrinə, onun Ali Baş Komandanına olan inam və etimadının, sevgisinin nə dərəcədə güclü olduğunu göstərdi. Yuxarıda qeyd etdiyimiz məqamlar dövlətimiz kimi, Ordumuzun da daim güclənməsini, inkişaf etməsini tələb edir.

Bu gün Azərbaycan Ordusu müasir maddi-texniki bazaya, peşəkar zabit heyətinə, yüksək və vətənpərvər döyüş ruhuna, zəngin hərbi təcrübəyə malikdir.

Komando birliklərinin yaradılması, Milli Müdafiə Universitetinin fəaliyyəti, Türkiyə ilə strateji hərbi əməkdaşlığın inkişafı və beynəlxalq tərəfdaşlıqlar Silahlı Qüvvələrimizin daha da güclənməsinə xidmət edir. Güclü Ordu Azərbaycanın müstəqilliyinin etibarlı təminatçısıdır.





# BRİTANİYA YENİDƏN AVROPAYA ÜZ TUTUR



Böyük Britaniya sakinləri ölkələrinin yenidən Avropa İttifaqına üzv olmasını arzulayırlar. İctimai rəy sorğuları adalıların arzusunu təsdiqləsə də, hələlik bu arzunun reallaşması heç də asan görünmür.



AZƏR NURİYEV

Avropa və dünya nəhəngi Böyük Britaniya təlatümlü günlər yaşayır. Baş nazir Kir Starmerin istefası ilə eyni vaxtda ölkənin yenidən Avropa İttifaqına (Aİ) geri dönüşü geniş müzakirə olunan məsələlər sırasındadır. 2016-cı ildə keçirilən referendum nəticəsində Böyük Britaniya Aİ-dən çıxdı. Tarixə "Brexit" adı ilə düşən bu qərar Avropa üçün ən mühüm siyasi hadisələrdən biri oldu. Həmin vaxt britaniyalı seçicilərin 52 faizi Aİ-dən ayrılmağa səs versə də, son on ildə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə baş verən dəyişikliklər bu qərarın yenidən müzakirə olunmasına səbəb olub. Bu gün əsas suallardan biri belədir: Britaniya yenidən Aİ-yə qayıda bilərmi?

### "BREXİT"DƏN ƏVVƏLKİ MÖVQE DƏYİŞİR

"Brexit" tərəfdarları ilk illərdə hesab edirdilər ki, Aİ-dən çıxmaq Böyük Britaniyaya sərhədlər, miqrasiya siyasəti və iqtisadi qərarlar üzərində daha çox nəzarət imkanı verəcək. Lakin son illərdə aparılan iqtisadi təhlillər göstərir ki, "Brexit" ticarət əlaqələrinin zəifləməsinə, investisiyaların azalmasına və iqtisadi artım tempinin aşağı düşməsinə təsir edib. Bir çox ekspertlər Böyük Britaniyanın ən böyük ticarət tərəfdaşı olan Aİ ilə münasibətlərin əvvəlki səviyyədən uzaqlaşmasının iqtisadi itkilər yaratdığını bildirirlər. Eyni zamanda, bir-birini əvəzləyən Britaniya hökumətləri müxtəlif sahələrdə Aİ ilə əməkdaşlığı genişləndirməyə çalışırlar. Xüsusilə müdafiə, enerji, elm və ticarət sahələrində daha sıx əməkdaşlıq istiqamətində addımlar atılır.



Antoniu Kosta

### BRİTANİYALILARIN ƏKSƏRİYYƏTİ "BREXİT"İN NƏTİCƏLƏRİNDƏN NARAZIDIR

Aparılmış araşdırmaların nəticələrinə görə, hazırda britaniyalıların böyük hissəsi "Brexit"in iqtisadi və sosial nəticələrindən narazıdır. Məsələn, 2022-ci ildən 2024-cü ilə qədər 67 milyonluq ölkədə miqrantların sayı 2 milyon nəfər artıb. Avropalılar gedib, onların yerini digər ölkələrin vətəndaşları tutub. "Brexit" üzrə referendumun keçirildiyi 2016-cı ildə Britaniyaya miqrantların gəldiyi ölkələr siyahısında ilk iki yeri Polşa (85 min nəfər) və Rumınıya (75 min) tuturdu. 2023-cü ildə isə Hindistan (250 min) və Nigeriya (140 min nəfər) liderdir. Ötən il miqrasiya kəskin şəkildə azalaraq 170 minə düşüb. Buna baxmayaraq, antimiqrant və anti-Avropa "Reform UK" partiyası sorğularda davamlı olaraq hakim leyboristləri və digər siyasi qüvvələri qabaqlayır. Gənc nəsil arasında isə Aİ-yə qayıdışa dəstək xüsusilə yüksəkdir.

Amma bir reallıq da var ki, Britaniyanın yenidən Aİ-yə üzv olması yaxın perspektivdə elə də asan görünmür.

### YAXIN GƏLƏCƏKDƏ YOX, AMMA UZUNMÜDDƏTLİ PERSPEKTİVDƏ İSTİSNA EDİLMİR

Rusiyanın Ukraynaya qarşı müharibəsi, ABŞ ilə Avropa arasında dəyişən münasibətlər və qlobal iqtisadi rəqabət Avropa dövlətlərini daha sıx əməkdaşlığa sövq edir. Bu fonda həm Londonda, həm də Brüsseldə Britaniya-Aİ münasibətlərinin dərinləşdirilməsi ideyası daha çox dəstək qazanır. Bir çox analitik hesab edir ki, Böyük Britaniya ilə Aİ arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq gələcəkdə daha inteqrasiya olunmuş münasibətlər üçün zəmin yarada bilər. "Britaniya Aİ-yə qayıdacaqmı?" sualına bu gün üçün ən düzgün cavab belədir: yaxın gələcəkdə yox, amma uzunmüddətli perspektivdə bu ehtimal istisna edilmir. Hətta britaniyalılar vahid Avropaya münasibətlərini kökündən dəyişsələr belə, onların fikri işin yalnız yarısıdır. Aİ-nin hər zaman özlərinə xüsusi münasibət tələb edən şıltaq adaları yenidən ailəyə buraxmaq istəyi də lazımdır.



Ursula fon der Lyayen

## Aİ-BÖYÜK BRİTANİYA SAMMİTİ UĞURLU OLACAQMI?

Aİ rəhbərliyi "Brexit"dən sonra Böyük Britaniya ilə münasibətlərin dərinləşdirilməsini alqışlayır, lakin ölkənin Aİ-yə mümkün qayıdışının müzakirəsi deyil, Londonla tərəfdaşlığın daha da inkişaf etdirilməsinə diqqət yetirir. Bu, Avropa Şurasının sədri Antoniu Koştanın Brüsseldəki son mətbuat konfransındakı bəyanatlarında da özünü göstərib. "Brexit"dən on il sonra britaniyalıların əksəriyyətinin Aİ-yə qayıdışı dəstəklədiyinə dair sorğuların nəticələri barədə suala cavab verən Koşta bəyan edib ki, son illərin əsas nailiyyəti Brüssel və London arasında münasibətlərin "yenidən işə salınması" olub. Onun sözlərinə görə, tərəflər ikitərəfli münasibətlərdə, həmçinin təhlükəsizlik, müdafiə və Ukraynaya dəstək məsələlərində əhəmiyyətli irəliləyişə nail olublar. "Mənim arzum odur ki, biz Birləşmiş Krallıqla münasibətlərimizdəki bu uğurlu yolu davam etdirək", - Koşta deyib. O qeyd edib ki, tərəflər ikinci Aİ-Böyük Britaniya sammitinə böyük səy və həvəslə hazırlaşıblar. "İndi, şübhəsiz, biz onu təxirə salmalı olacağıq, lakin biz bu yeni sammitin keçirilməsi imkanlarını nəzərdən keçiririk", - o deyib.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen də Aİ ilə Böyük Britaniya arasında sabit əlaqələrin vacibliyini vurğulayıb. "Mən Birləşmiş Krallıq xalqı ilə möhkəm və sabit münasibətlərin bərpasına ümid edirəm", - o bəyan edib. Maraqlıdır ki, nə Koşta, nə də fon der Lyayen Böyük Britaniyanın Aİ-yə yenidən daxil olması perspektivini birbaşa şərh etməyiblər.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# NEFT-KİMYA SƏNAYESİNƏ YENİ NƏFƏS

**Azərbaycanın yeni neft emalı zavodunun tikintisi ölkənin enerji sektorunun inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Layihə daxili emal gücünün artırılmasına, əlavə dəyər zəncirinin genişlənməsinə və iqtisadiyyatın şaxələndirilməsinə xidmət edəcək.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda yeni neft emalı zavodunun tikintisi ilə bağlı müvafiq qərar qəbul edilib. Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib. Nazirin sözlərinə görə, layihənin təxminən 5-6 il ərzində tamamlanması nəzərdə tutulur. O bildirib ki, yeni zavod tam müasir tələblərə cavab verəcək və həm sənaye, həm də ekoloji standartlar baxımından ən son yanaşmalar əsasında inşa olunacaq.

Yeni zavodun tikintisi yalnız yanacaq istehsalının artırılması deyil, eyni zamanda neft-kimya məhsulları istehsalının genişləndirilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından da mühüm əhəmiyyət daşıyır.

Bəs yeni neft emalı zavodu Azərbaycanın iqtisadiyyatına hansı töhfələri verə bilər?

### "YENİ ZAVOD SOCAR-IN İXRAC İMKANLARINI GENİŞLƏNDİRƏCƏK"

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev "Kaspi" qəzetinə açıqlamasında bildirir ki, 1953-cü ildə istismara verilən Heydər Əliyev adına Neft Emalı Zavodu ölkənin yanacaq istehsalı sektorunun əsas emal müəssisəsidir. Ekspertin sözlərinə görə, zavodda benzin, dizel yanacağı, aviasiya kerosini, neft koksu, bitum, mazut, LPG və digər neft məhsulları istehsal olunur, bununla da daxili tələbatın böyük hissəsi qarşılanır: "2015-ci ilin oktyabrında zavodun modernləşdirilməsi məqsədilə təxminən 1,5-2 milyard ABŞ dolları dəyərində kompleks yenidənqurma layihəsinə start verilib. Proqramın əsas məqsədləri istehsal gücünün artırılması, "Avro-5" standartlarına uyğun yanacaq istehsalına keçidin təmin edilməsi, "Azərikimya" İstehsalat Birliyinin xammal təchizatının gücləndirilməsi və emal müəssisəsinin istismar müddətinin uzadılması olub".

Ekspert vurğulayır ki, hazırda qlobal emal gücləri enerji bazarlarında neft məhsullarına olan tələbatı qarşılamaq və bazar tarazlığının qorunub saxlanması kimi funksiyaları yerinə yetirir: "Müasir tələblərə cavab verən yeni emal gücünün bir neçə ildən sonra istismara verilməsi ölkədaxili yanacaq təchizatını yaxşılaşdırmaqla yanaşı SOCAR-ın beynəlxalq ixrac qabiliyyətini və bazar payını artıracaq. SOCAR-ın Azərbaycan, Türkiyə və İtaliya aktivlərinin ümumi emal gücü ildə 30 milyon ton olmaqla onun Cənubi Qafqaz, Qara dəniz və Aralıq dənizi enerji bazarlarında rolunu artıracaq. Qarşıdakı illərdə yüksək enerji daşıyıcıları və neft-kimya məhsulları qiymətindən yararlanan ölkələrdən biri də Azərbaycan olacaq".

### "LAYİHƏ ÖLKƏNİN MALİYYƏ İMKANLARINI GÜCLƏNDİRƏCƏK"

İqtisadçı-ekspert Asif İbrahimov bildirir ki, Azərbaycanın yeni neft emalı zavodunun tikintisi ilə bağlı qəbul olunan qərar ölkənin enerji sektorunun inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Onun sözlərinə görə, layihə daxili emal gücünün artırılmasına, əlavə dəyər zəncirinin genişlənməsinə və iqtisadiyyatın şaxələndirilməsinə xidmət edəcək: "Azərbaycan neft-qaz ehtiyatlarının hasilatçısı olan ölkədir. Yeni zavodun istifadəyə verilməsi nəticəsində benzin, dizel və digər neft məhsullarının istehsal həcminin artırılması, idxaldan asılılığın azalması və ixrac potensialının güclənməsi mümkün olacaq. Bu, eyni zamanda valyuta daxilolmalarının artmasına və tədiyyə balansının möhkəmlənməsinə müsbət təsir göstərə bilər. Layihə həm tikinti, həm də istismar mərhələsində yeni iş yerlərinin yaradılmasına, yerli sənaye və xidmət sektorunun inkişafına imkan verəcək. Bununla yanaşı, yeni texnologiyaların tətbiqi və sənaye infrastrukturunun modernləşdirilməsi Azərbaycanın daha müasir və beynəlxalq standartlara uyğun istehsal imkanlarına sahib olmasına şərait yaradacaq. Qlobal enerji keçidi və dekarbonizasiya trendləri nəzərə alınaraq, layihənin uzunmüddətli dayanıqlılığı yüksək səmərəlilik və beynəlxalq ekoloji standartlara uyğun istehsal həllərinin tətbiqi ilə təmin olunacaq. Nazirin vurğuladığı kimi, belə iri sənaye layihələri Azərbaycanın iqtisadi inkişaf strategiyasında mühüm yer tutur və ölkənin sənaye potensialının gücləndirilməsinə xidmət edir".



## STRUKTUR VƏ QLOBAL BAZAR RİSKLƏRİ

Mütəxəssis bildirir ki, belə iri sənaye layihələrini qiymətləndirərkən müəyyən risklər də nəzərə alınmalıdır. Layihənin icrası və tətbiqi zamanı bir sıra amillər diqqətdə saxlanılmalıdır: "Ümumilikdə, Azərbaycanda yeni neft emalı zavodunun tikintisi ilə bağlı qəbul olunan qərar enerji təhlükəsizliyi baxımından mühüm addım hesab edilir. Lakin layihə iqtisadi artım, enerji təhlükəsizliyi və ixrac potensialı baxımından yeni imkanlar yaratsa da, struktur və qlobal bazar risklərini də özündə ehtiva edir. Bu risklər sırasında layihənin iqtisadi səmərəliliyi və əlavə dəyərin yaradılması məsələləri xüsusi əhəmiyyət daşıyır. Hazırkı mərhələdə əsas suallardan biri texniki-iqtisadi əsaslandırmanın hansı səviyyədə aparılması və layihənin uzunmüddətli perspektivdə nə dərəcədə səmərəli olacağı ilə bağlıdır".

### "YÜKSƏK STANDARTLAR LAYİHƏNİN RƏQABƏT ÜSTÜNLÜYÜNÜ GÜCLƏNDİRƏCƏK"

Ekspert qeyd edir ki, müasir dövrdə qlobal enerji trendləri, xüsusilə dekarbonizasiya prosesi və yaşıl iqtisadiyyata keçid neft-qaz sektoruna yeni çağırışlar yaradır: "Dünyada hibrid və alternativ enerji texnologiyalarının tətbiqi genişlənir, bir sıra ölkələr neft və qazdan asılılığı azaltmaq istiqamətində strategiyalar həyata keçirirlər. Avropa da bu istiqamətdə sürətli keçidi təmin etmək üçün genişmiqyaslı planlar hazırlayır. Bu baxımdan yeni layihələrin qlobal enerji dəyişikliklərinə nə dərəcədə uyğunlaşdırılması mühüm məsələlərdən biridir. Region bazarında neft məhsullarına tələbat yüksək olsa da, mövcud emal gücləri və rəqabət layihənin ixrac imkanlarına təsir göstərə bilər. Türkiyə, Rusiya və Körfəz ölkələrində yerləşən iri neft emalı müəssisələri beynəlxalq bazarlarda pay uğrunda rəqabət aparır. Bu səbəbdən layihənin uğuru əsasən istehsal olunacaq məhsulların beynəlxalq standartlara uyğunluğundan, eləcə də logistika imkanlarının düzgün qurulmasından asılı olacaq".



Asif İbrahimov



Zəfər Vəliyev

# BEŞ YÜZ MİN EV ÜÇÜN AÇILAN QAPI



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Sənədsiz evlərə amnistiya həm yüz minlərlə vətəndaşın mülkiyyət problemini həll edə, həm də daşınmaz əmlak bazarına və dövlət büdcəsinə əlavə gəlir qazandıra bilər. Ekspertlər isə bunun yalnız ciddi hüquqi meyarlar əsasında mümkün olduğunu deyirlər.**



Sənədsiz evlər problemi yenidən diqqət mərkəzindədir. Milli Məclisdə deputat Kamal Cəfərov tərəfindən bu evlər üçün amnistiya təklifi irəli sürülüb. Rəsmi məlumatlara görə, ölkədə 500 mindən çox sənədsiz ev mövcuddur. Hüquqi statusun olmaması vətəndaşları qeydiyyat, kommunal təminat, vərəsəlik və alqı-satqı kimi fundamental mülkiyyət hüquqlarından məhrum edir. Nəticədə, mülklərin bazar dəyəri 20-30% ucuzlaşır, banklar onları girov qəbul etmir və bu mülklər iqtisadi fəaliyyət üçün kapitala çevrilə bilmir. Problemin həlli üçün Türkiyənin 2018-ci ildə 7 milyon evi əhatə edən "İmar Barışı" proqramına istinad edilərək, ölkəmizdə də oxşar dövlət proqramının icrası təklif olunur. Nəqliyyat, enerji xətlərinin mühafizə zolaqları və digər riskli ərazilər istisna olmaqla, qalan tikililərin leqallaşdırılmasının ölkə iqtisadiyyatına və büdcəyə milyardlarla manat əlavə dəyər qazandıracağı vurğulanır.
Bəs, parlamentdə səsləndirilən bu amnistiya təşəbbüsü nə dərəcədə realdır?

### "50-55 MİN MƏNZİL DƏRHAL SƏNƏDLƏŞDİRİLƏ BİLƏR"

Əmlak eksperti Firdovsi Xəlilovun sözlərinə görə, bu məsələnin birdən-birə həlli qeyri-mümkündür: "Real və effektiv nəticə əldə etmək üçün sənədsiz evlər kateqoriyalara bölünməli və qeydiyyatları ən asandan çətinə doğru prinsipi ilə həll edilməlidir. Sənədləşdirmənin ən asan mərhələsi çoxmənzilli yaşayış binalarıdır. Bir çox yeni tikililərdə vətəndaşlar qaz, su və işıqla təmin olunsa da, çıxarışların verilməsi bəzən 10-15 il yubanır. İlkin hesablamalara görə, MTK-lar qarşısında öhdəliklərini tam yerinə yetirmiş 50-55 min mənzil dərhal sənədləşdirilə bilər".

F.Xəlilov bildirdi ki, ikinci kateqoriyaya təyinatı uyğun olmayan torpaqlarda tikilmiş fərdi evlər aiddir. Vətəndaşın mülkiyyətində olan torpaqda tikilmiş, lakin ərazisi kənd təsərrüfatı və ya örüş təyinatlı olan on minlərlə ev var: "Buna misal olaraq Bakının Binə, Xocəsən, Pirşağı, Mehdiabad, eləcə də Sumqayıt ətrafındakı qəsəbələri göstərmək olar. Nazirlər Kabinetinin qərarı ilə bu ərazilərin təyinatı dəyişdirilərək yaşayış məntəqələrinə aid edilməli, daha sonra isə vətəndaşlar şəhərsalma qaydalarına uyğun şəkildə çıxarışlarını almalıdırlar. Üçüncü mərhələ bələdiyyə sənədli torpaqları əhatə edir. İlk növbədə bu ərazilərin yaşayış üçün uyğunluğu yoxlanılmalı və başqa şəxslərin ərazi üzərində mülkiyyət iddiasının olub-olmaması dəqiqləşdirilməlidir. Əgər hər şey qaydasındadırsa, təyinat dəyişdirilərək mərhələli şəkildə həm torpağa, həm də evə çıxarış verilə bilər".

### "Amnistiyanın gələcəkdə yeni qeyri-qanuni tikililərə yol açmaması üçün..."

Ekspertin fikrincə, ən çətin və sona saxlanılmalı olan mərhələ isə zəbt olunmuş və mübahisəli ərazilərdəki evlərin taleyinə aydınlıq gətirilməlidir: "Məhkəmə predmeti olan bu ərazilərə yüksək gərginlikli elektrik xətlərinin altı, magistral yolların kənarları və su kollektorlarının üzərində tikilmiş evlər aiddir. İnsan həyatı üçün təhlükə yaradan belə evlər istisna olmaqla, digər qruplarda sənədləşməyə başlanarsa, bir il ərzində 500 min mənzilin ən azı yarısına çıxarış vermək mümkündür. Bununla yanaşı, amnistiyanın gələcəkdə yeni qeyri-qanuni tikililərə yol açmaması üçün yaşayış təyinatı olmayan riskli ərazilərdə (məsələn, kollektor və göl ətrafında) evlərin inşasının qarşısı sistemli şəkildə alınmalıdır".










### "Hüquqi baxımdan tam realdır"

Hüquqşünas Rüstəm Əzimzadə düşünür ki, onilliklərdir istifadə edilsə də, bu tikililər hüquqi baxımdan dövlət reyestrində yoxdur. Məsələ Mülki Məcəllə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanun və Şəhərsalma Məcəlləsi ilə tənzimlənir. Mövcud qanunvericiliyə görə, müvafiq tikinti icazəsi olmayan hər hansı bina qanunsuz sayılır. Məhz bu status boşluğu yüz minlərlə vətəndaşı qeydiyyat, kommunal xidmət, vərəsəlik və kredit imkanlarından məhrum edir: "Parlamentdə səsləndirilən amnistiya təşəbbüsü hüquqi baxımdan tam realdır. Bu yanaşma beynəlxalq təcrübədə də geniş tətbiq olunur. Məsələn, Türkiyədə 2018-ci ildə tətbiq edilən "İmar Barışı" proqramı çərçivəsində yeddi milyondan çox tikili bazar dəyərinin cüzi 3 faizi həcmində rüsum ödənilməklə rəsmiləşdirilib. İspaniya, Portuqaliya və bir sıra digər ölkələrdə də analoji mexanizmlər dövlət və vətəndaş münasibətlərində müsbət nəticə verib".

### "ƏMLAK TAM HÜQUQİ DÖVRİYYƏYƏ DAXİL OLACAQ"

Hüquqşünasın fikrincə, vətəndaş rəsmi çıxarış əldə edərək Konstitusiyanın 13-cü maddəsindəki mülkiyyət təminatından tam yararlanacaq. Vərəsəlik hüququ bərpa ediləcək və illərdir yığılıb qalan miras problemləri rəsmiləşəcək: "Alqı-satqı və girov proseslərində köklü dönüş baş verəcək. Əmlak tam hüquqi dövriyyəyə daxil olacaq, evlərin hazırda mövcud olan 20-30 faizlik dəyər itkisi aradan qalxacaq".

### XÜSUSİ DÖVLƏT PROQRAMI VƏ YA AYRICA QANUN

Hüquqşünas Elnur Məmmədovun sözlərinə görə, dövlət ilk növbədə hansı tikililərin leqallaşdırılmasının mümkün olduğunu müəyyən etməlidir. Nəqliyyat və enerji xətlərinin mühafizə zolaqlarında, strateji təyinatlı torpaqlarda, təhlükəli geoloji ərazilərdə və hüquqi mübahisə predmeti olan torpaq sahələrində yerləşən evlərin leqallaşdırılması qanunvericilik və ictimai təhlükəsizlik baxımından mümkün deyil.

E.Məmmədov hesab edir ki, problemin həlli üçün mövcud qanunvericiliyə ayrı-ayrı dəyişikliklər etmək kifayət etməyə bilər. Çünki məsələ həm torpaq hüququnu, həm şəhərsalma qaydalarını, həm də daşınmaz əmlakın dövlət qeydiyyatı sistemini əhatə edir: "Buna görə də xüsusi dövlət proqramının və ya ayrıca qanunun qəbul edilməsi daha məqsədəuyğun olardı. Əsas məsələ hüquqi, texniki və təhlükəsizlik meyarlarının düzgün müəyyən olunması və prosesin mərhələli şəkildə həyata keçirilməsidir".

# TƏCİLİ DİAQNOSTİKA ƏLÇATMAZ OLANDA

Dövlət xəstəxanalarında diaqnostik avadanlıqların çatışmazlığı müşahidə olunur. Bu avadanlıqları işlətmək üçün kadr qıtlığı da var. Mütəxəssislər həyəcan təbili çalırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bu yaxınlarda Abşeron rayonunda baş vermiş ağır motosiklet qəzasından sonra yaralının diaqnostik müayinəsi ilə bağlı ortaya çıxan məlumatlar səhiyyə xidmətlərinin əlçatanlığı məsələsini yenidən gündəmə gətirib. Hadisə bir daha göstərir ki, bəzi rayonlardakı xəstəxanalarda kompüter tomoqrafiyası (KT) və maqnit-rezonans tomoqrafiyası (MRT) kimi həyati əhəmiyyət daşıyan diaqnostik avadanlıqların çatışmazlığı var. Bu da təcili tibbi yardımın keyfiyyətinə və xəstələrin vaxtında müayinə olunmasına nəinki ciddi təsir göstərir, hətta faciəyə gətirib çıxarır. Rayonlarda bu xidmətlərin məhdud olması səbəbindən minlərlə xəstə diaqnostik müayinələr üçün Bakıdakı tibb müəssisələrinə üz tutmağa məcbur qalır. Nəticədə paytaxt xəstəxanalarında sıxlıq və uzun növbələr yaranır, xəstələrin müayinəyə çıxışı çətinləşir. Bu vəziyyət həm region sakinləri, həm də Bakıdakı tibb müəssisələrindən istifadə edən vətəndaşlar üçün əlavə vaxt və maliyyə yükü yaradır.

Rayon xəstəxanalarında KT və MRT kimi həyati vacib diaqnostik avadanlıqların çatışmazlığı həm paytaxt, həm də rayonlarda diaqnostik imkanların genişləndirilməsi və vətəndaşların keyfiyyətli tibbi xidmətə çıxışının təmin edilməsi istiqamətində həlli vacib məsələləri ortaya çıxarır.

### CƏMİ 30 ƏDƏD KT CİHAZI VAR

TƏBİB-in mətbuata verdiyi açıqlamaya görə, hazırda qurumun tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində 30 ədəd KT cihazı mövcuddur. Onların 11-i Bakı şəhərində, 19-u isə regionlarda yerləşir: "Radioloji tibbi xidmətlərin təkmilləşdirilməsi məqsədilə müasir tibbi texnologiyaların tətbiqi istiqamətində tədbirlər davam etdirilir. Əsas məqsəd bütün tibb müəssisələrinin radioloji avadanlıqlarla təchiz olunması deyil, pasiyentlərin radioloji xidmətlərə əlçatanlığının təmin edilməsi və vahid radioloji xidmət sisteminin formalaşdırılmasıdır", - deyə qurumdan bildirilib.

Həkim və ekspertlər problemin kifayət qədər dərin olduğunu və bu sahədə təxirəsalınmaz işlərin vacibliyini bildirirlər.



## "Rayon xəstəxanalarında 60-cı illərin aparatlarından istifadə olunur"

Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli ölkəmizdə radiologiya ilə bağlı ciddi problemlərin yaşandığını bildirir: "Səbəblərdən biri radioloq həkimlərin ciddi çatışmazlığıdır. Dövlət klinikalarında radioloqların sayı kifayət qədər deyil. Radioloji avadanlıqlar – KT, MRT aparatları çox bahalıdır. Onların alınması o zaman zərurətə çevrilir ki, həm də kifayət qədər kadr potensialı olsun. Müəyyən rayonlarda diaqnostik mərkəzlər var. Ancaq orada alınan aparatların çoxu işlək olmayan vəziyyətdə qalıb. Hazırda rayon xəstəxanalarında 60-cı illərin aparatlarından istifadə olunur". Ekspertin sözlərinə görə, dövlət klinikalarında rentgen kontrast maddə yoxdur: "Sığortalı xəstələri heç özəl klinikalara da transfer etmirlər. Xəstə kontrast KT olmalıdır, amma "alternativ olaraq sizi kontrastlı MRT edə bilərik. Sizi özəl xəstəxanaya göndərə bilmirik", - deyirlər. Bu gün öyündüyümüz Yeni Klinikada pasiyentləri kontrastlı KT-yə növbəyə götürür, amma bir gün qalmış "kontrastlı maddə olmadığından sizi müayinəyə çağıra bilmirik" deyirlər. Nəticədə xəstələr çətin durumda, xidməti almamış vəziyyətdə qalırlar".

### "YALNIZ KADRI DƏYİŞMƏKLƏ İSLAHAT OLMUR"

Ekspert bildirir ki, Abşeron rayon mərkəzi xəstəxanasında da bu cür avadanlıqlar yoxdur, onlar xəstələri göndərişlə başqa xəstəxanalara yönləndirirlər: "Xəstələr sığortalı olsa da, xidmətin dəyərinin 20 faizinin pulunu ödəməlidirlər. Elə klinikalar var ki, pasiyenti gecə 2-3-ə növbəyə yazırlar". İ.Hüseynov rayonlarda vəziyyətin daha acınacaqlı olduğunu deyir: "KT aparatı bir yana qalsın, normal rentgen aparatları istismar vaxtını bitirmiş vəziyyətdədir". Ekspert hesab edir ki, səhiyyə sahəsində təkcə kadr dəyişikliyi ilə islahata nail olmaq mümkün deyil: "Mütəxəssislərin sayı azaldılmasın, əksinə, artırılsın, 65 yaşlı həkimlər işdən çıxarılmasın. Onsuz gənclər bölgələrə getmirlər. Həkimsizləşmək problemi yaşayırıq. Gənc həkimlər kütləvi şəkildə Almaniyaya gedirlər. Onlar üçün yaxşı şərait yaradılmalı, avadanlıqlar verilməlidir ki, burada qalıb radioloq kimi işləsinlər. Rerezidentura ilə bağlı da islahatlar aparılmalıdır. Yalnız kadrı dəyişməklə islahat olmur. Səhiyyə sahəsində görülməli işlər çoxdur".

## Havadan asılı qalan xəstələr

Professor Adil Qeybulla bildirir ki, təxirəsalınmaz hadisələr dünyanın hər yerində baş verir və bu vəziyyətə həmişə hazır olmaq lazımdır: "İstənilən xəstəxananın "təcili" deyilən bir guşəsi olmalıdır. Çünki xəstənin hadisə yerindən götürülməsi mühüm əhəmiyyət kəsb edir. Həmin zərərçəkmiş hadisə yerindən xəstəxanaya gətirilirsə, yolda əlavə travma ala bilər. Yəni ortada baş beynin, onurğa beynin, onurğa beynin boyun şöbəsinin sınığı və digər ağır travmalar ola bilər. Bunun üçün xüsusi protokol var və bütün həkimlər bunu bilməlidirlər". Professor bildirir ki, hazırda bütün kəllə-beyin travmalarında müasir metod olan MRT və KT-dən geniş istifadə olunur. Bu baxımdan dövlət xəstəxanalarının işlək vəziyyətdə olması şərtdir: "Təəssüf ki, bir müddət əvvəl bu xəstəxanalarda Səhiyyə Nazirliyi tərəfindən təmir işləri aparılanda xeyli köhnə avadanlıqları da gətirib o müəssisələrdə yerləşdiriblər. Onların da bəziləri qısa müddətdən sonra xarab olur və belə problemlər yaşanır".

A.Qeybulla hesab edir ki, xəstəxanadakı bu avadanlıqların texniki durumunun dəyərləndirilməsi, onların işlək vəziyyətdə olması üçün lazımı tədbirlərin görülməsinə, tez-tez xarab olan hissələrinin dəyişdirilməsinə ehtiyac var: "Təəssüf ki, bir avadanlığın olmaması və işləməməsi ucbatından xəstələrin həyatı havadan asılı qalır".



Adil Qeybulla



İlqar Hüseynli

UŞAQLARA QARŞI LAQEYDLİK, TƏHLÜKƏLİ VALİDEYN DAVRANIŞLARI CİDDİ NARAHATLIQ DOĞURUR

# BÜTÜN AİLƏ MODELLƏRİ RİSK ALTINDADIR



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Uşaqlara qarşı laqeydlik, bəzi hallarda təhlükəli valideyn davranışları cəmiyyətdə ciddi müzakirə mövzusuna çevrilib. Ekspertlər yaranmış vəziyyətlə bağlı həyəcan təbili çalırlar.**

Son zamanlarda Azərbaycanda valideynlərin uşaqlara münasibəti ilə bağlı narahatlıq doğuran hadisələr ard-arda gündəmə gəlir. Məsələn, altı uşağın zəhərlənməsi ilə bağlı hadisədə ata övladlarından birinin "pay verildiyini" iddia edib. Digər bir hadisədə isə Tovuz rayonunda valideynlərin uşaqlarından imtina etdiyi bildirilir. Bu və digər hadisələrin fonunda uşaqlara qarşı laqeydlik, bəzi hallarda təhlükəli valideyn davranışları cəmiyyətdə ciddi müzakirə mövzusuna çevrilir.

Bu kimi problemlərin miqyası həqiqətən narahatedici səviyyədədirmi və onların qarşısının alınması üçün hansı addımlar atılmalıdır?

### "SON ÜÇ AYDA 362 MÜRACİƏT DAXİL OLUB"

"Ümidli Gələcək" Gənclər İctimai Birliyinin sədri Kəmalə Aşumova "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, Uşaq Qaynar Xəttinə olan müraciətlərin sayında artım var: "Əslində burada iki paralel proses müşahidə olunur. Bir tərəfdən sosial media və ictimai həssaslığın artması bu mövzunu daha görünən, müzakirə olunan hala gətirir. Digər tərəfdən isə sosial-iqtisadi çətinliklər, valideynlik bacarıqlarındakı boşluqlar real risk faktorlarını artırır. Azərbaycan Uşaq Qaynar Xəttinə son üç ayda 362 zorakılıqla bağlı müraciət daxil olub. Bir tərəfdən bunu müsbət qiymətləndiririk ki, insanlar 116 111 qaynar xəttini tanıyır və müraciət edirlər. Bu, onların çətin anlarda dəstək ala bilməsi baxımından vacibdir. Psixoloji zorakılıq, ailədaxili münaqişələr və baxımsızlıq halları ilə bağlı müraciətlərin sayında da artım müşahidə olunur. Bu, insanların artıq susmaq əvəzinə yardım axtarmağa üstünlük verdiyini və bu məqsədlə qaynar xətlərə müraciət etdiyini göstərir".

### AYSBERQİN GÖRÜNƏN HİSSƏSİ

QHT rəhbəri bildirir ki, mediaya çıxan və ictimailəşdirilən hallar yalnız aysberqin görünən hissəsidir: "Təcrübəmizə görə, zorakılığın böyük bir hissəsi ictimailəşmir. Xüsusilə ailədaxili münasibətlər çox vaxt gizli qalır. Bu səbəbdən valideynlərin öz valideynlik məsuliyyətini dərk etməsi və övladların ehtiyaclarını təmin etməsi üçün reabilitasiya mərkəzlərinin fəaliyyəti xüsusilə vacibdir. Ən böyük problem və çətinlik isə bu cür halların və faktların erkən aşkarlanmasında və koordinasiyanın olmamasındadır. Nəticələr göstərir ki, bəzən uşaq aylarla məktəbə gəlmir və bu barədə rayon üzrə müvafiq qurumlar məlumatlı olmur. Ailənin ümumi qiymətləndirilməsi aparılmır ki, uşaq niyə məktəbdən kənarda qalır və təhsildən uzaqlaşır. Bəzi hallarda isə uşaqların harada olduğu belə bilinmir. Bizim üçün ən vacib məsələ uşaq müdafiə sisteminin, xüsusilə onun tərkib hissəsi olan erkən aşkarlama mexanizminin gücləndirilməsidir".



## "Artıq sabit kateqoriyalaşma yoxdur"

Daha çox hansı sosial qruplarda bu kimi problemlərin müşahidə olunduğuna gəldikdə isə, həmsöhbətimiz vurğulayır ki, 10 il bundan əvvəl əsas risk qrupları sosial rifahı aşağı olan və natamam ailələr idi. Lakin hazırda vəziyyət dəyişib. Demək olar ki, bütün qruplar müəyyən risk faktorlarına məruz qala bilər: "Tərbiyə prosesində yaranan pozuntular, uşağın inkişafının düzgün istiqamətləndirilməməsi, rəqəmsal texnologiyalardan həddindən artıq və nəzarətsiz istifadə, eləcə də internet təhlükəsizliyi ilə bağlı zəiflik nəticəsində bu risklər artıq daha geniş miqyas alıb. Demək olar ki, bütün ailə modellərinə təsir edir. Artıq sabit kateqoriyalaşma yoxdur. Düzdür, sosial rifahı aşağı olan ailələr birinci risk qrupu kimi qalır, lakin maddi rifahı yaxşı olan ailələrdə də statistik artım və vəziyyətin pisləşməsi müşahidə olunur. Əgər uşaq susursa, bu o demək deyil ki, problem yoxdur".




## "Laqeyd davranışın bir çox səbəbi ola bilər"

"Indigo Support" Reabilitasiya və İnteqrasiya Mərkəzinin meneceri və psixoloqu Aysel Qafarova bildirir ki, valideynin öz övladına qarşı laqeyd davranmasının bir çox səbəbi ola bilər. Bu amillərə valideynin yaşı, psixoloji cəhətdən hazır olub-olmaması, emosional vəziyyəti, uşaqlıq travmaları, erkən nikah və öz valideynlərindən gördüyü münasibəti model kimi qəbul etməsi daxildir: "Bu tip davranışlar, bir qayda olaraq, ani şəkildə deyil, tədricən formalaşır. Davranışa səbəb olan amillər təkrarlanan xarakter aldıqda, beyin təxminən 14-21 gün ərzində həmin reaksiyanı vərdiş kimi mənimsəyir. Bununla yanaşı, kəskin və güclü stres hallarında davranışın qəfil şəkildə ortaya çıxması da istisna edilmir".

Psixoloqun qənaətincə, valideyn davranışı o zaman riskli hesab olunur ki, stres faktorları qısa müddətli deyil, davamlı xarakter alsın və xroniki mərhələyə keçsin: "Bu vəziyyətdə beynin emosional tənzimləmə və qərarvermə mexanizmləri pozulur, reaksiyalar adekvatlığını itirir. Valideyn uşağın yaşına uyğun normal davranışlarına belə həddindən artıq və ya uyğunsuz reaksiya verə bilər, nəticədə münasibətlərdə emosional uzaqlaşma yaranır. Risk indikatorları kimi laqeydlik, aqressiya, uşağın təhlükəsizlik hissinin zədələnməsi, valideyn davranışına bağlı qorxu, həyəcan pozuntularının yaranması çıxış edir".

### ÇIXIŞ YOLU NƏDİR?

A.Qafarova bildirir ki, bu vəziyyətin qarşısını erkən mərhələdə almaq mümkündür: "Əsas şərt valideynin öz emosional vəziyyətini vaxtında dərk etməsi və davranışlarında dəyişiklik ehtiyacını qəbul etməsidir. Erkən mərhələdə fərqindəlik formalaşdıqda, münasibətlərdə yaranan gərginlik dərinləşmədən tənzimlənə bilər. Maarifləndirmə və psixoloji dəstək bu halların azaldılmasında əhəmiyyətli rol oynayır. Psixoloji dəstək artıq formalaşmış stres və davranış modellərinin dəyişdirilməsində daha effektiv nəticə verir. Ən vacib profilaktik addım isə valideynin öz davranışlarını mütəmadi olaraq refleksiya etməsi və emosional sabitliyini qorumağa yönəlmiş vərdişlər formalaşdırmasıdır".



# AQRAR QANUNVERİCİLİK DƏYİŞDİRİLİR

Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi nəzərdə tutulur.

Aqrar sektorun inkişafı ilə bağlı qəbul edilən Dövlət Proqramına uyğun olaraq bu sahə ilə bağlı qanunvericilik bazasında da ciddi dəyişikliklər edilir.

Belə ki, Azərbaycanda Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi nəzərdə tutulur. Müvafiq qanun layihəsi Milli Məclisin Aqrar siyasət komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb. Sənəd kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası üçün hüquqi baza yaradılmasını nəzərdə tutur.

## Aqrar təyinatlı torpaqların konsolidasiyası

Kənd təsərrüfatı torpaqlarının kiçik hissələrə parçalanması torpaq resurslarından tam istifadəni ciddi şəkildə məhdudlaşdırır. Parçalanma torpağın əkin məqsədilə istifadəsini azaldır, texnikadan səmərəli yararlanmaya maneə törədir, suvarma sistemlərinin effektiv qurulmasını çətinləşdirir, toxum, gübrə və digər aqrotexniki vasitələrdən məqsədyönlü istifadəni zəiflədir. Bunun nəticəsində istehsal xərcləri artır, məhsuldarlıq aşağı düşür, kənd ərazilərinin sosial-iqtisadi inkişafı ləngiyir. Bu sahəyə dair xüsusi hüquqi tənzimlənmənin olmaması isə torpaqların konsolidasiyasının ölkə miqyasında tam həyata keçirilməsinin qarşısını alır. Bu boşluğu aradan qaldırmaq məqsədilə Torpaq Məcəlləsinə yeni 13-2-ci maddə əlavə edilir. Həmin maddə torpaqların konsolidasiyasını kənd təsərrüfatı məqsədilə torpaq sahələrinin mülkiyyətçilərin razılığı və ekvivalent bazar dəyəri əsasında birləşdirilməsi, bölünməsi, sərhədlərinin yenidən müəyyən edilməsi, dəyişdirilməsi nəticəsində mülkiyyət hüquqlarının yenidən rəsmiləşdirilməsi, eləcə də ehtiyacdan asılı olaraq suvarma, meliorasiya, yol, enerji və digər mühəndis-kommunikasiya infrastrukturu üzrə dəyişikliklərin həyata keçirilməsi prosesi kimi müəyyən edir. Konsolidasiya müvafiq icra hakimiyyəti orqanının yaratdığı komissiyanın qərarı əsasında hazırlanan layihə ilə həyata keçirilir.

### MÜLKİ MƏCƏLLƏDƏ DƏYİŞİKLİK

Torpaqların könüllü konsolidasiyasını stimullaşdırmaq məqsədilə Mülki Məcəlləyə yeni 648-1-ci maddə əlavə edilir: kənd təsərrüfatı torpaq sahəsi satışa çıxarıldıqda həmin sahə ilə bilavasitə ümumi sərhədə malik torpaq sahəsi mülkiyyətçiləri həmin sahəni eyni şərtlərlə satın almaqda üstünlük hüququna malik olurlar. Bu norma qonşu torpaq sahiblərinin öz sahələrini genişləndirməsinə, beləliklə konsolidasiyaya təbii bazar mexanizmi vasitəsilə nail olunmasına şərait yaradır.

Miras yolu ilə torpaq parçalanmasının qarşısını almaq üçün 1282-ci maddəyə dəyişiklik edilir: vərəsəlik zamanı kənd təsərrüfatı torpağının bölünməsinə yalnız hər bir hissənin 5 hektardan az olmaması şərti ilə yol verilir. Bölgü mümkün olmadıqda torpaq təsərrüfatla birlikdə satıla, vərəsələr isə paylarını pul şəklində ala bilərlər.



## Toxumçuluq sahəsinin iqtisadi əsasları yenilənir

Dövlət Proqramında nəzərdə tutulan istiqamətlər üzrə aqrar sektorla bağlı digər mühüm məqamlardan biri də "Toxumçuluq haqqında" qanun layihəsidir. Bu layihə də komitədə müzakirə edilib. Bildirilir ki, Azərbaycanda dayanıqlı olmayan kənd təsərrüfatı üsullarının tətbiqi nəticəsində resurs ehtiyatlarının sıradan çıxması, habelə qlobal iqlim dəyişikliklərinin mənfi təsirləri fonunda artan əhalinin ərzaqla təmin edilməsi mühüm vəzifə kimi qarşıda durur. Ərzaq təhlükəsizliyinin təmin edilməsində bitkiçilik məhsullarının istehsalı xüsusi yer tutur ki, bunun üçün də fermerlərin keyfiyyətli toxumla təminatı həlledici əhəmiyyət daşıyır. Toxum istehsalının inkişaf etdirilməsi istehsal xərclərini azaldır, bitkiçilik məhsullarının iqtisadi səmərəliliyini və əlçatanlığını artırır, idxala sərf olunan vəsaitin ölkədə qalmasına imkan verir.

Qanun layihəsi müasir dövrün tələbləri, yeni iqtisadi, nəzarət və dəstək mexanizmlərinin tətbiqi, habelə kənd təsərrüfatı sahəsində aparılan islahatların dərinləşdirilməsi zərurəti nəzərə alınmaqla sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsini hədəfləyir. Layihəyə toxumçuluq fəaliyyəti ilə bağlı bir sıra yeni anlayışlar daxil edilib, mövcud anlayışlar isə mahiyyətinə uyğun olaraq dəqiqləşdirilir. Toxumçuluğun məqsəd və prinsipləri ətraflı şəkildə müəyyən edilib, sahənin obyektlərinin və subyektlərinin dairəsi dəqiqləşdirilib. Eyni zamanda, qanun layihəsində toxumun keyfiyyətinə nəzarət və sertifikatlaşdırmanın beynəlxalq təcrübəyə uyğunlaşdırılması nəzərdə tutulur, toxum müfəttişlərinin səlahiyyət və vəzifələri, toxumların emalı, utilizasiyası, məhv edilməsi, qablaşdırılması və etiketləşdirilməsi prosesləri dəqiq müəyyən edilir. Layihədə nəzərdə tutulan yeniliklərdən biri də məhz elektronlaşma ilə bağlıdır. Belə ki, toxumçuluq sahəsində fəaliyyət göstərən subyektlərin (toxum əməliyyatçılarının) qeydiyyatının elektron şəkildə aparılması prosesin operativliyini təmin etmək baxımından mühüm amildir. Elektronlaşma nəticəsində aidiyyəti şəxslərin sortluq və səpin keyfiyyətini təsdiq edən sertifikatı olan toxumlar, habelə onların bioloji və iqtisadi göstəriciləri barədə ətraflı məlumat almalarına şərait yaradacaq. Qanun layihəsi həm də toxumçuluq sahəsinin iqtisadi əsaslarını yeniləyir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 822
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# “QIRMIZI METAL” BAHALAŞIR



Dünya bazarında misin qiyməti bütün zamanların maksimumuna yaxınlaşıb. Geosiyasi gərginliklər və logistik problemlər səbəbindən təchizat zəncirində yaranan qırılmalar elektrotexnika, avtomobil və tikinti sektorlarında ciddi qiymət artımı təhlükəsi yaradır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Artan təchizat riskləri ilə əlaqədar olaraq dünya bazarında misin qiyməti bir ton üçün 14 min dollar səviyyəsini keçərək ilin əvvəlində qeydə alınan tarixi zirvəyə yaxınlaşıb. Misə olan tələb, xüsusilə dünyanın ən böyük istehlakçısı olan Çinin alışı hesabına dayanıqlı qalır. Ölkədə elektrik şəbəkələrinin genişlənməsi, bərpa olunan enerji investisiyaları və süni intellekt sektorunun inkişafı misə tələbatı dəstəkləyir. Güclü tələb, təchizat problemləri də misin bahalaşmasına səbəb olur. Neft emalı zavodlarından əlavə məhsul kimi əldə edilən kükürdün daşınmasında da çətinliklər yaranıb. Afrikadakı “Mis kəməri”ndə (Zambiya və Konqo Demokratik Respublikası) yerləşən istehsal xətləri filizin ayrılması üçün lazım olan sulfat turşusunun istehsalında bu kükürddən asılıdır. Logistikadakı çətinlik qlobal mis təklifini birbaşa təhdid edir.

### ZƏNCİRVARİ REAKSİYA

İqtisadçı Pərviz Heydərovun sözlərinə görə, mis qlobal sənayedə ən çox tələb olunan və iqtisadiyyatın nəbzini təyin edən əsas xammallardan biridir. Son günlər onun qiymətinin bir ton üçün 14 min dolları keçərək tarixi zirvəyə yaxınlaşması bütün dünyada ciddi narahatlıq yaradıb: “Kəskin bahalaşma və təchizat əlaqələrin qırılması zəncirvari reaksiya ilə bir çox məhsulların qiymətlərinin yüksəlməsinə gətirib çıxara bilər. Söhbət elektrotexnika və elektronika, məişət texnikası, avtomobil sənayesi, yüksək texnologiyalar və tikinti sektoru kimi həyati əhəmiyyətli sahələrdə istehsalın ləngiməsi, yekun olaraq istehlak qiymətlərinin qalxacağı ehtimalından gedir. Müasir dövrdə mis sadəcə bir metal deyil, həm də gələcək texnologiyaların təməl daşıdır. Xüsusilə son illərdə elektromobillərin (EV) və hibrid maşınların kütləvi istehsalı misə olan tələbatı dəfələrlə artırıb. Ənənəvi daxili yanma mühərrikli avtomobillərdən fərqli olaraq, bir elektromobilin istehsalında 3-4 dəfə daha çox mis xammalı tələb olunur. Bundan əlavə, bərpa olunan enerji infrastrukturunun, günəş panellərinin, külək turbinlərinin və süni intellekt məlumat mərkəzlərinin (Data Center) sürətli inkişafı bazarda bu metala olan ehtiyacı pik həddə çatdırıb. Xammal bahalaşdıqca zavodların istehsal xərcləri də artır. Bu da son nəticədə rəflərdəki məhsulların qiymət etiketlərinə birbaşa təsir göstərir. Biz daxili istehsalımızla xammal iştirakçısı olsaq da, yekun istehlak mallarını xaricdən alırıq. Vətəndaşlarımızın gündəlik həyatda istifadə etdiyi məişət texnikası (xüsusən tərkibində geniş mis boru şəbəkəsi olan kondisionerlər, soyuducular), müasir elektronika (smartfonlar, kompüterlər) və ən əsası, avtomobillər ölkəyə kənardan hazır şəkildə gətirilir. Odur ki, misin bahalaşması səbəbindən maya dəyərinin artması yaxın gələcəkdə daxili bazarda da qiymət artımına gətirib çıxaracaq. Eyni zamanda, ölkədə sürətlə inkişaf edən tikinti sektorunda geniş istifadə olunan elektrik kabelləri və isitmə-soyutma sistemlərinin də xərclərinin artması mənzil təmiri xərclərini yüksəldəcək”.

## Geosiyasi gərginlik səngiməlidir

P.Heydərovun fikrincə, mis ilə bağlı yaranmış bu böhranın tezliklə aradan qalxması üçün ilk növbədə geosiyasi gərginliklər zəifləməlidir: “Xüsusilə Yaxın Şərqdə, İran ətrafındakı müharibə riski və qlobal dəniz ticarətinin şah damarı sayılan Hörmüz boğazındakı blokada təhlükəsi aradan götürülməlidir. Təchizat zəncirində yaranan istənilən fasilə qlobal təklifi məhdudlaşdırır”.

### AZƏRBAYCAN ÜÇÜN MÜSBƏT TƏRƏFİ DƏ VAR

İqtisadçı bildirdi ki, Azərbaycan özü də mis istehsalçısı və ixracatçısı olan ölkədir. Gədəbəy və digər zəngin yataqlardan hasil etdiyimiz mis məhsulunun beynəlxalq birjalara çıxarılması ölkəmizə xarici valyuta gətirir və dövlət büdcəsinin gəlirlərini artırır: “Qlobal bazarda qiymətlərin tarixi maksimuma çatması respublikamızın qeyri-neft sektoru üzrə ixrac göstəricilərinə və makroiqtisadi balansına müsbət təsir edən sevindirici amildir”.



Pərviz Heydərov

## “İran xüsusilə önəmli və spesifik yer tuturdu”

İnşaat eksperti Elnur Azadovun sözlərinə görə, dünyada mis ixracı ilə məşğul olan bir neçə aparıcı ölkə var ki, onların arasında İran xüsusilə önəmli və spesifik yer tuturdu: “Uzun illər ərzində formalaşmış iqtisadi konyunktura və daxili istehsal resurslarının bolluğu İranda misin qiymətinin qlobal bazarla müqayisədə kifayət qədər aşağı olması ilə nəticələnmişdi. İrandan xammal və ya yarımfabrikat şəklində bu məhsulları əldə edən həmin tranzit dövlətlər isə öz növbəsində əsl vasitəçi rolunda çıxış edirdilər. Onlar ucuz qiymətə tədarük etdikləri mis və digər sənaye məhsullarını yenidən qablaşdırır, mənşə sənədlərini dəyişdirir və fərqli adlar altında qlobal bazara daha yüksək qiymətlərlə çıxarırdılar. Beləliklə, dünya bazarlarına daxil olan misin mühüm bir hissəsinin ilkin mənbəyi birbaşa və ya dolayısı ilə məhz İran bazarı idi”.



Elnur Azadov

### BAHALAŞAN TƏK MİS DEYİL

E.Azadov hesab edir ki, misdən başqa qlobal miqyasda istifadə olunan bir çox vacib inşaat materiallının, tikinti xammalının ixracı da bilavasitə İranla bağlı idi. Bu bölgədən ənənəvi olaraq yüksək həcmdə və büdcəyə uyğun qiymətə tədarük edilən materiallar bir çox region ölkələrinin, hətta irimiqyaslı infrastruktur layihələrinin tikinti smetalarının formalaşmasında həlledici rol oynayırdı: “İlin əvvəlindən etibarən geosiyasi vəziyyətin kəskinləşməsi, logistikadakı çətinliklər və beynəlxalq ticarət əlaqələrindəki qeyri-sabitlik səbəbindən bu mürəkkəb ticarət zəncirinin qəfil pozulması baş verdi. Tədarük qrafiklərində yaranan uzunmüddətli fasilələr və bağlanmış ticarət müqavilələrinin ləğvi hazırda dünya bazarına çox mənfi təsir göstərməkdədir”.

# "QIZIL ORDANIN ÖYRƏNİLMƏSİNDƏ "SAKİT İNQİLAB" BAŞ VERİR"

Jaksılıq Sabitov: "Bu irs bu gün türk dövlətləri arasında ortaq tarix və mədəni yaddaş ideyasını gücləndirən amillərdən biri hesab olunur. Qızıl Orda və türk köçəri sivilizasiyasının tarixi hələ tam yazılmayıb. Qarşıda çox böyük elmi iş aparılmalıdır".



**"Qızıl Ordada minimum 104 xanın hakimiyyət sürdüyünü müəyyən ediblər"**

Son illərdə Qızıl Orda tarixinin araşdırılması yeni mərhələyə qədəm qoyub. Qazaxıstanın siyasi elmlər doktoru və Ulus Cuci Araşdırmaları Elmi İnstitutunun direktoru Jaksılıq Sabitov "Kaspi" qəzetinə müsahibəsində Qızıl Orda, Qazax xanlığı və türk köçəri dövlətlərinin tarixinin yenidən araşdırılmasının vacibliyindən danışıb. Bu prosesi "Cuçi dönüşü" və "tarixi ədalətin bərpası" adlandıran tarixçinin fikrincə, uzun illər sovet tarixşünaslığında kölgədə saxlanılan Qızıl Orda irsi bu gün yenidən milli yaddaşa qaytarılır.

### TARİXDƏ MÜHÜM BİRLƏŞDİRİCİ ROL

● **Jaksılıq müəllim, Qızıl Orda ilə bağlı simpoziumun elmi və tarixi əhəmiyyəti nədən ibarətdir? Niyə bu mövzu məhz bu gün aktualdır?**

● Qızıl Orda ilə bağlı keçirilən simpoziumlar orta əsr Avrasiya tarixinin yenidən araşdırılması baxımından böyük əhəmiyyət daşıyır. Uzun illər sovet tarixşünaslığında bu dövlət əsasən dağıdıcı imperiya kimi təqdim olunurdu. Müasir araşdırmalar isə göstərir ki, Qızıl Orda inkişaf etmiş siyasi, iqtisadi və mədəni sistemə malik idi. Bu mövzu bu gün xüsusilə aktualdır, çünki türk dünyasında ortaq tarixi yaddaşa maraq artır və yeni arxeoloji, genetik, numizmatik tapıntılar ortaya çıxır. Belə tədbirlər müxtəlif ölkələrdən alimləri bir araya gətirir, yeni mənbələrin müqayisəli şəkildə araşdırılmasına imkan yaradır. Simpozium nəticəsində ortaq elmi layihələr, yeni nəşrlər və beynəlxalq əməkdaşlıqlar yarana bilər.

● **Qızıl Orda Avrasiya tarixində hansı rolu oynayıb?**

● Qızıl Orda Şərqlə Qərbi birləşdirən əsas siyasi və ticarət mərkəzlərindən biri olub. Böyük İpək Yolunun mühüm hissəsi onun nəzarəti altında idi. Köçəri sivilizasiyası tarixdə mühüm birləşdirici rol oynayıb. Böyük İpək Yolunun əsas ticarət marşrutları məhz köçəri dövlətləri vasitəsilə Şərqlə Qərbi birləşdirirdi. Çin malları Avropaya, Roma və Yaxın Şərq məhsulları isə Asiyaya bu yollar vasitəsilə çatırdı. Dövlət həm imperiya, həm də çoxmillətli siyasi konfederasiya xüsusiyyətləri daşıyırdı. Müxtəlif tayfalar, xalqlar və dinlər vahid siyasi sistem daxilində fəaliyyət göstərirdi.

### ORTAQ TARİX VƏ MƏDƏNİ YADDAŞ İDEYASI

● **Qızıl Orda türk dünyasının tarixində hansı yeri tutur? Bu irs türk dövlətlərinin inteqrasiyasına necə təsir edir?**

● Qızıl Orda türk dövlətçilik ənənəsinin ən mühüm mərhələlərindən biridir. Müasir qazax, tatar, noqay, başqırd və digər türk xalqlarının siyasi və mədəni formalaşmasına təsir göstərib. Bu irs bu gün türk dövlətləri arasında ortaq tarix və mədəni yaddaş ideyasının gücləndirən amillərdən biri hesab olunur. Qızıl Orda və türk köçəri sivilizasiyasının tarixi hələ tam yazılmayıb. Qarşıda çox böyük elmi iş aparılmalıdır.

### BOŞ QALAN SƏHİFƏLƏRİ ARAŞDIRMAQ

● **Rəhbərlik etdiyiniz Ulus Cuci Araşdırmaları Elmi İnstitutu bu istiqamətdə hansı töhfələri verir?**

● Qazaxıstanda uzun illər tarix əsasən yubileylər çərçivəsində yada salınırdı. Məsələn, 2015-ci ildə Qazax xanlığının 550 illiyi çox təmtəraqlı şəkildə qeyd edildi, amma fundamental elmi nəticələr az oldu. Buna görə də tariximizin boş qalan səhifələrini araşdırmaq üçün xüsusi institut yaratmağa ehtiyac duyuldu. Prezident Tokayevin fərmanı ilə bu institut yaradıldı. İnstitutumuzun əsas məqsədi Cuci xandan başlayaraq XIX əsrdə yaşamış Kenesarı xana qədər Qazaxıstan tarixini sistemli şəkildə öyrənməkdir.



SÖHBƏTLƏŞDİ
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

> *"Qızıl Orda və türk köçəri sivilizasiyasının tarixi hələ tam yazılmayıb. Qarşıda çox böyük elmi iş aparılmalıdır."*

● **Qızıl Orda tarixində ən mübahisəli məsələlər həllini tapıbmı?**

● Ən mübahisəli məsələlərdən biri dövlətin etnik xarakteri hesab edilib. Bəzi tarixçilər onu monqol imperiyasının davamı, digərləri isə türkləşmiş dövlət hesab edirlər. Digər mübahisəli mövzular dövlətin süqut səbəbləri, rus knyazlıqları ilə münasibətlər və Qızıl Ordanın varisləri məsələsidir. Amma indi demək olar ki, bütün mübahisəli məsələlər həll olunub.

● **Bu tarixi irslə bağlı yeni mənbələr və ya arxeoloji tapıntılar varmı?**

● 2009-cu ildən etibarən Qızıl Ordanın öyrənilməsi sahəsində "sakit inqilab" baş verir. Yeni sikkələr tapılır, əvvəllər məlum olmayan xanların adları müəyyən edilir, qədim mənbələr tərcümə olunur və paleogenetik araşdırmalar aparılır. Numizmatika sahəsində aparılan tədqiqatlar Qızıl Ordanın iqtisadi gücünü daha dəqiq göstərir. Dünyanın müxtəlif muzey və şəxsi kolleksiyalarında təxminən bir milyon Qızıl Orda sikkəsi saxlanılır. Araşdırmalara əsasən, dövlətin yüksəliş dövründə hər il təxminən 28 milyon gümüş sikkə zərb olunurdu. Bu fakt Qızıl Ordanın yalnız hərbi imperiya deyil, həm də inkişaf etmiş ticarət və iqtisadiyyat mərkəzi olduğunu göstərir. Həmçinin paleogenetik araşdırmalar hökmdar nəslinin və tayfaların mənşəyini öyrənməyə kömək edir. Qızıl Ordada minimum 104 xanın hakimiyyət sürdüyünü müəyyən ediblər. Qazaxıstanda qədim Saraycıq şəhərinin bərpası da bu tarixi marağın bir hissəsinə çevrilib. Şəhərdə qala qapıları, yaşayış məhəllələri, emalatxanalar və xan türbələri yenidən qurulur. Məqsəd yalnız turizm deyil, həm də Qızıl Orda dövrünün mədəni irsini gələcək nəsillərə çatdırmaqdır.

● **Qızıl Orda irsi müasir nəsillərə nə verə bilər?**

● Qızıl Orda irsi onu təşkil edən bütün xalqların ortaq mirasıdır. Bu irs xalqlara öz tarixini daha dərindən anlamağa imkan verir. Bu tarix orta məktəb dərsliklərinə daxil ediləcək. Qızıl Orda nümunəsi göstərir ki, fərqli xalqlar və mədəniyyətlər uzun müddət vahid siyasi sistem daxilində birlikdə yaşaya biliblər.

Bu tarix müasir dövrdə mədəni dialoq, tolerantlıq və ortaq regional əməkdaşlıq ideyalarını gücləndirə bilər.



# YUMURTA BAZARINDA ENİŞ DALĞASI

Son günlər marketlərdə yumurtanın kəskin ucuzlaşması müşahidə edilir. Ekspertlər bunu mövsümi amillər, təklifin tələbi üstələməsi ilə əlaqələndirirlər və payıza qədər qiymətlərin alıcılar üçün münasib olacağını proqnozlaşdırırlar.

SEVİNC ABBASOVA

Son günlər yumurta bazarında müşahidə olunan qiymət enişi geniş ajiotaj yaradıb. Bazarda yaranan vəziyyət yumurta qiymətlərinin yay aylarında necə dəyişəcəyi ilə bağlı sualları da artırıb. Ekspertlər hesab edirlər ki, yaxın aylarda yumurta bazarında vəziyyət həm daxili istehsal göstəricilərindən, həm də istehsal xərclərinin dinamikasından asılı olacaq. Mütəxəssislərin fikrincə, yay mövsümündə yumurtaya olan tələbatın nisbətən azalması qiymətlərin sabit qalmasına və ya müəyyən qədər ucuzlaşmaya şərait yarada bilər.

Bazar iştirakçıları bildirirlər ki, qiymətlərin uzun müddət aşağı səviyyədə qalması istehsalçılar üçün müəyyən çətinliklər yarada bilər. Yem, enerji və logistika xərclərinin yüksək olduğu şəraitdə satış qiymətlərinin həddindən artıq enməsi rentabelliyi azalda bilər. Bu səbəbdən istehsalçıların bir hissəsi mövcud qiymətləri qənaətbəxş hesab etmir.

### KƏSKİN UCUZLAŞMA QİYMƏT ARTIMINA TƏKAN VERƏ BİLƏR

İqtisadçı-ekspert Xalid Kərimli bildirib ki, yumurta bazarında müşahidə olunan qiymət enişinin əsas səbəbi tələbatın azalması deyil, təklifin tələbi üstələməsidir: "Burada əsas amil bazarda məhsul bolluğunun yaranmasıdır. Yəni, qiymətlərin aşağı düşməsini birbaşa istehlak tələbinin zəifləməsi ilə əlaqələndirmək düzgün olmazdı. Hazırda bazarda təklif kifayət qədər çoxdur və bu da qiymətlərə aşağı istiqamətdə təzyiq göstərir. Eyni zamanda, havaların isti keçməsi yumurtanın saxlanılması və realizasiyası ilə bağlı riskləri artırır. Belə vəziyyətdə istehsalçılar və satıcılar məhsulun xarab olmasının qarşısını almaq üçün onu daha aşağı qiymətə satmağa üstünlük verirlər. Bu isə qısa müddətdə istehlakçılar üçün əlverişli görünsə də, istehsalçılar baxımından arzuolunan deyil. Çünki məhsulun maya dəyərindən və ya rentabellik səviyyəsindən aşağı qiymətə satılması sahibkarların maliyyə itkiləri ilə üzləşməsinə səbəb olur".

Ekspertin sözlərinə görə, bazarda baş verən kəskin ucuzlaşmaların uzunmüddətli təsirləri də nəzərə alınmalıdır. Belə ki, zərərlə işləyən istehsalçılar növbəti dövrlərdə istehsal həcmlərini azaltmağa məcbur qala bilərlər. Nəticədə bazara çıxarılan məhsulun miqdarı azalır, təklif daralır və bu da sonrakı mərhələdə qiymətlərin yenidən yüksəlməsinə zəmin yaradır. "Kəskin qiymət enişindən müəyyən müddət sonra təklifin azalması fonunda bahalaşma baş verir. Ona görə də hazırkı ucuzlaşmanın gələcək aylarda qiymətlərə necə təsir göstərəcəyini istehsalçıların davranışı müəyyən edəcək", – deyə X.Kərimli vurğulayıb.

İqtisadçı qeyd edib ki, qiymətin aşağı olması məhsulun keyfiyyəti ilə bağlı tələbləri dəyişmir. Onun fikrincə, məhsulun hansı qiymətə satılmasından asılı olmayaraq, istehsalçı və satıcılar keyfiyyət standartlarına tam riayət etməli, istehlakçıların sağlamlığı üçün hər hansı risk yaratmamalıdırlar. "İstehlakçıya təqdim olunan yumurta xarab olmamalı, saxlanma və satış qaydalarına uyğun şəkildə bazara çıxarılmalıdır", – deyə ekspert əlavə edib.





Xalid Kərimli

## "YUMURTANIN MAYA DƏYƏRİ 12 QƏPİKDİR"

M.Həsənli qeyd edib ki, hazırda bir ədəd yumurtanın orta maya dəyəri təxminən 12 qəpik təşkil edir. Bundan aşağı satış istehsalçılar üçün birbaşa maliyyə itkisi deməkdir. Onun sözlərinə görə, hazırda ölkədə gündəlik yumurta istehlakı təxminən dörd milyon ədəd olduğu halda, istehsal həcmi altı milyon ədədə yaxınlaşır. Məhz bu fərq bazarda məhsul bolluğu yaradaraq qiymətlərin aşağı düşməsinə səbəb olur.

M.Həsənli vurğulayıb ki, son illərdə dövlətin kənd təsərrüfatı və quşçuluq sektoruna göstərdiyi dəstək nəticəsində ölkədə yumurta istehsalı əhəmiyyətli dərəcədə artıb. Onun sözlərinə görə, artıq bir neçə ildir ki, bazarda təklif tələbi üstələyir və bunun nəticəsində yumurta qiymətlərində ciddi bahalaşma müşahidə olunmur. "Bu, bazar iqtisadiyyatının əsas qanunlarından biridir. Təklif tələbdən çox olduqda qiymətlər aşağı düşür. Son illərdə yumurta bazarında bir neçə dəfə analoji vəziyyət yaşanıb və hazırkı proses də həmin tendensiyanın davamıdır", – deyə sədr bildirib.

### BAZARDA TƏKLİF TƏLƏBİ ÜSTƏLƏYİB

Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının İdarə Heyətinin sədri Mürvət Həsənli isə yumurta bazarında müşahidə olunan ucuzlaşmanın bir neçə səbəbdən qaynaqlandığını bildirib. Onun sözlərinə görə, hazırda ölkədə yumurta istehsalı daxili tələbatı tam ödəməklə yanaşı, onu əhəmiyyətli dərəcədə üstələyir.

M.Həsənli qeyd edib ki, qiymətlərin aşağı düşməsində ilk növbədə mövsümi amillər rol oynayıb. Belə ki, gün işığının uzanması fərdi təsərrüfatlarda saxlanılan toyuqların məhsuldarlığını artırıb və bazara əlavə yumurta çıxarılıb. Eyni zamanda sənaye üsulu ilə fəaliyyət göstərən quşçuluq müəssisələri də istehsal həcmlərini artırıblar ki, bu da bazarda təklifin daha da genişlənməsinə səbəb olub.

Assosiasiya sədrinin sözlərinə görə, qiymətlərə təsir edən digər vacib amillərdən biri ixracın zəifləməsidir. O bildirib ki, son dövrlər logistika sahəsində yaranan çətinliklər, xüsusilə İran üzərindən daşımalar zamanı müşahidə olunan problemlər ixrac imkanlarını məhdudlaşdırıb. Nəticədə xarici bazarlara yönəlməli olan məhsulun bir hissəsi daxili bazarda qalıb və bu da təklifin artmasına təsir göstərib.

M.Həsənli təhsil ilinin başa çatmasının da bazara müəyyən təsir göstərdiyini vurğulayıb. Onun sözlərinə görə, məktəblərin bağlanması, insanların tətilə çıxması və istehlak vərdişlərində baş verən dəyişikliklər yumurtaya olan gündəlik tələbatın azalmasına səbəb olub. Bu amillərin məcmusu qiymətlərin aşağı düşməsini sürətləndirib.

"Yay aylarında yumurtanın qiymətində müəyyən qədər əlavə azalma da mümkündür. Bəzi hallarda qiymətlər 10-12 qəpik səviyyəsinə qədər enə bilər. Lakin bu vəziyyət uzunmüddətli olmayacaq və sentyabr ayından etibarən bazarda daha balanslı qiymətlərin formalaşacağını gözləyirik", – deyə o bildirib.



Mürvət Həsənli

# SERVİSSİZ QALAN ÇİN AVTOMOBİLLƏRİ

Çin avtomobillərinin kütləvi idxalı fonunda yaranan xidmət böhranı və avtomobil bazarındakı xaos dərinləşir. Fərdi qaydada ölkəyə gətirilən maşınların rəsmi servislər tərəfindən qəbul edilməməsi istehlakçıları ciddi təhlükə ilə üz-üzə qoyur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son illərdə Azərbaycanda Çin avtomobillərinə maraq sürətlə artmaqdadır. Münasib qiymət və zəngin təchizat paketi bu markaları alıcılar üçün cəlbedici edib. Lakin bazarın bu cür böyüməsi özü ilə bərabər satış sonrası xidmətlə bağlı bəzi narazılıqları da gündəmə gətirib. Xüsusilə fərdi qaydada və ya qeyri-rəsmi idxalçılar vasitəsilə ölkəyə gətirilən avtomobillərin sahibləri rəsmi servis mərkəzlərində onlara xidmət göstərilməsindən imtina edildiyini bildirirlər. Nəticədə xeyli insanın hüquqları kütləvi şəkildə pozulur. Alman, yapon və Koreya maşınları ilə bağlı belə bir problem yaşanmadığı halda, Çin avtomobil şirkətlərinə aid servislərin bu siyasəti nə dərəcədə doğrudur? Rəsmi servis mərkəzi sadəcə rəsmi dilerdən alınmadığını əsas gətirilərək eyni markalı avtomobilə xidmət göstərməkdən imtina edə bilərmi?



### STANDARTLARA UYĞUN OLMAYAN AVTOMOBİLLƏR

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərovun sözlərinə görə, Çindən fərdi qaydada gətirilən avtomobillərin böyük əksəriyyəti yalnız həmin ölkənin daxili bazarı üçün nəzərdə tutulub və Avropa standartlarına cavab vermir. Azərbaycanda fəaliyyət göstərən rəsmi diler və distribütorlar isə əsasən Avropa spesifikasiyalı avtomobillər idxal edir: "Buna uyğun olaraq, bazardakı ehtiyat hissələri və texniki təchizat da məhz bu standartlar əsasında formalaşdırılır. Belə olan halda, rəsmi dilerlərin fərdi qaydada gətirilmiş Çin avtomobillərinə xidmət göstərməkdən imtina etməsi tamamilə əsaslı və qanunauyğundur. Qeyri-rəsmi yollarla ölkəyə daxil olan, mənşəyi məlum olmayan və heç bir istehsalçı zəmanəti daşımayan maşınların rəsmi servislərdə təmiri texniki cəhətdən də məqsədəuyğun deyil. Nəzərə almaq lazımdır ki, rəsmi servis hər hansı avtomobili təmir edərkən onun sonrakı istismarına və texniki qulluğuna görə də məsuliyyət daşıyır. Bu baxımdan servislərin imtina qərarı tamamilə başadüşüləndir. Yerli dilerlər Avropa standartlarına cavab verən avtomobilləri təqdim edir və fəaliyyətlərini zavodun verdiyi istehsalçı zəmanəti əsasında qururlar. Yalnız Çin bazarı üçün istehsal edilən bir avtomobili təmir etmək üçün rəsmi servisin nə müvafiq ehtiyat hissəsi, nə də bu xüsusi modifikasiya üzrə ixtisaslaşmış ustası mövcuddur. Vizual olaraq eyni model kimi görünsələr də, ehtiyat hissələri çox vaxt bir-birinə uyğun gəlmir".

## HÜQUQİ MƏSULİYYƏT MƏSƏLƏSİ

E.Cəfərov bildirdi ki, məsələnin digər tərəfi hüquqi məsuliyyətlə bağlıdır. Rəsmi servislər yalnız özləri satdıqları avtomobillərin təhlükəsizliyinə zəmanət verir: "Mənşəyi və texniki vəziyyəti tam bilinməyən avtomobillərdə qısa müddət sonra mühərrik problemlərinin, təhlükəsizlik kəməri və ya əyləc sistemində gizli zavod qüsurlarının üzə çıxma ehtimalı var. Baş verə biləcək hər hansı ağır qəza halında hüquqi məsuliyyəti kimin daşıyacağı açıq qalır. Fərdi şəxslərin avtomobil idxalından gəlir əldə etməsi, yaranan potensial texniki fəsadlara görə isə məsuliyyətin rəsmi servisin üzərinə atılması qətiyyən ədalətli yanaşma deyil".





### "HAQSIZ RƏQABƏT MÜHİTİ FORMALAŞDIRIRLAR"

Ekspertin fikrincə, mövcud vəziyyət rəsmi diler və distribütorların da hüquqlarının ciddi şəkildə pozulmasına gətirib çıxarır: "Onlar ölkəyə standartlara cavab verən avtomobillər gətirir, alıcılara 5-10 illik istehsalçı zəmanəti təqdim edir və yüzlərlə iş yeri yaradırlar. Fərdi idxalla məşğul olan şəxslər isə satış sonrası heç bir servis qulluğu təşkil etmədən haqsız rəqabət mühiti formalaşdırırlar. Bu vəziyyət rəsmi şirkətlərin müflisləşmə təhlükəsi ilə üzləşməsinə, kütləvi ixtisarlara və şöbələrin bağlanmasına səbəb ola bilər. Nəticədə proses həm dövlət büdcəsinə daxil olan vergilərin azalmasına, həm də işsizliyin artması ilə müşayiət olunan sosial problemlərə yol açır. Mövcud xaotik vəziyyətin aradan qaldırılması üçün müvafiq qurumların diqqətinin bu sahəyə yönəlməsi və rəsmi distribütorların hüquqlarının qorunması zəruridir".

## "BU SAHƏDƏ XAOS MÖVCUDDUR"

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə bildirdi ki, bu sahədə xaos mövcuddur: "Rəsmi satış nöqtəsindən alınmayan Çin avtomobillərinə servis xidmətinin göstərilməməsi istehlakçı hüquqlarının pozulmasıdır və bu, ümumilikdə avtomobil bazarında böyük bir xaosun hökm sürdüyünü sübut edir. Əgər avtomobil rəsmi dilerdən deyil, təsadüfi bir yerdən alınıbsa, hətta tamamilə yeni olsa belə, servis mərkəzi təmənnasız xidmət göstərməkdən imtina edə bilər və istehlakçılar bu reallığı nəzərə almalıdırlar. Avtomobil bazarındakı xaos təkcə xidmətdən imtina halları ilə məhdudlaşmır. Bir çox rəsmi satış nöqtələri zəmanət verərkən məntiqə sığmayan şərtlər irəli sürürlər. Məsələn, istehlakçıya bildirilir ki, avtomobilin qapısında kiçik bir əzik olarsa və o, başqa yerdə təmir edilərsə, maşın ümumi zəmanətdən çıxarılacaq. Düşünürəm ki, bu, tamamilə absurd yanaşmadır. Sürücü uzaq bir regionda nasazlıqla və ya hər hansı hadisə ilə üzləşərsə, avtomobili yerindəcə düzəltdirib hərəkətinə davam etməyə məcburdur. Belə bir vəziyyətdə avtomobilin zəmanətdən məhrum edilməsi yolverilməzdir".

### "MÜTLƏQ ONUN SERVİS KİTABÇASI TƏLƏB EDİLMƏLİDİR"

E.Hüseynovun sözlərinə görə, xüsusən "ikinci əl" avtomobil alan istehlakçılar diqqətli olmalıdırlar. İşlənmiş maşın alarkən mütləq onun servis kitabçası tələb edilməlidir: "Həmin kitabçada avtomobilin hansı yürüşdə (kilometrajda) harada olduğu, yağ dəyişmə prosesinin necə həyata keçirildiyi aydın qeyd olunur. Qeydiyyatı və ya servis kitabçası olmayan avtomobillərin alınması tövsiyə edilmir. Çünki belə hallarda adətən avtomobilin qüsurları olur və gizlətmək üçün kitabça qəsdən yox edilir".

Sədrin fikrincə, hazırda ölkəyə külli miqdarda standartlara cavab verməyən saxta detallar gətirilir: "Vəziyyət o həddə çatıb ki, satıcılar özləri belə müştəriyə "bu, saxtadır və ucuzdur, bu isə orijinaldır" deyə etiraf edirlər".



Eyyub Hüseynov

# KEÇMİŞLƏ GƏLƏCƏYİ BİRLƏŞDİRƏN ŞƏHƏR










**Mərkəzi Asiyanın ikinci ən böyük məscidi Həzrət Sultan, bölgənin "Harvard"ı olmağı hədəfləyən Nazarbayev Universiteti, sülh və tolerantlıq rəmzi olan Bayterik qülləsi, Xan Çadırı, "Qazax eli" abidəsi, İstiqlal Sarayı kimi görməli yerlərlə tanışlıq Asatana haqqında təəssüratları zənginləşdirir.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Astana" qazax dilində "paytaxt" deməkdir. 29 il əvvəl Qazaxıstanın paytaxtı statusunu alandan sonra şəhər "Avrasiyaya qızıl qapı" ləqəbini də qazanıb. Əvvəllər ticarət yollarının kəsişməsində yerləşən kiçik yaşayış məntəqəsi sürətlə böyüyən şəhərə - xarici investisiyalar üçün əsas regional cəlbedici mərkəzlərdən birinə çevrilib. Dünyanın ən soyuq şəhərləri arasında ikinci yerdə olan paytaxt şəhəri indi mühüm siyasi, iqtisadi və idman tədbirlərinin mərkəzi kimi tanınır.

### ÖZÜNƏ İDDİALI VƏ XƏYALLAR ŞƏHƏRİ

"Qızıl Orda"nın irsinə həsr olunan beynəlxalq simpoziumun keçirildiyi günlərdə mediaturun iştirakçısı kimi paytaxtla yaxından tanış olmaq fürsəti yarandı. Hava limanından hotelə qədər geniş küçələri, memarlığı ilə diqqət çəkən ən müasir binaları heyranlıqla izlədim. Sürücünün "Astana bu gün gələcəyin şəhəri, xəyallar şəhəridir. Hər gün inkişaf edir və çiçəklənir",- fikirlərinə haqq qazandırdım. Ən heyrətamiz formalı göydələnlər, müasir parklar və meydanlar, gözəl fəvvarələr və abidələr paytaxtın küçələrini bəzəyir.
Əlbəttə, Astana öz inkişafını Qazaxıstanın keçmiş dövlət başçısı Nursultan Nazarbayevə borcludur. Yol boyu şəhərin görkəminə baxıb "Astana özünə iddialı, lakin əldə edilə bilən bir məqsəd qoyub: dünyanın ən gözəl paytaxtlarından birinə çevrilmək. Şəhər buna nail olmaq üçün hər şeyi edir..." - deyə düşündüm.

### QƏDİM KÖÇƏRİLƏRİN UNİKAL TAPINTILARI

Paytaxtda gələn qonaqları Qazaxıstanın tarixinə bələd olmaq üçün şəhərin simvolu sayılan yerlərlə tanış edirlər. Paytaxtın ən böyük, Mərkəzi Asiyanın isə ikinci böyük məscidi Həzrət Sultan məscidi, bölgənin "Harvard"ı olmağı hədəfləyən Nazarbayev Universiteti, sülh və tolerantlıq rəmzi olan Bayterik qülləsi, Akorda (Prezident) Sarayı, Xan Çadırı, "Qazax eli" abidəsi, İstiqlal Sarayı və s. görməli yerlərlə tanışlıq şəhər haqqında təəssüratları zənginləşdirir. Paytaxtda yerləşən Milli Muzey isə təkcə eksponatlar toplusu deyil, həm də Qazaxıstan tarixini öyrənmək və xalqının ruhunu yaşamaq istəyən hər kəs üçün mədəniyyət, elm və ilham mərkəzidir.

Milli Muzeyin tarixi 10 ildən çoxdur. Bu gün muzeyin kolleksiyasında ölkənin tarixini, mədəniyyətini və incəsənətini əks etdirən 200 mindən çox eksponat var. Bələdçinin dediyinə görə, muzeyi il ərzində 10 mindən çox insan ziyarət edir: "Yay aylarında hər gün muzeyə 2 min insan gəlir. Qış vaxtı soyuq olduğundan ziyarətçilər seyrəlirlər". Muzeyin 16 daimi zalında Böyük Çöl sivilizasiyasını formalaşdıran görkəmli tarixi şəxsiyyətlərin, mütəfəkkirlərin və hökmdarların irsi nümayiş etdirilir. Qədim və orta əsrlər tarixi zallarında alətlər, keramika, tunc və dəmir dövrlərinə aid arxeoloji tapıntılar və orta əsrlər Qazaxıstana aid artefaktlar nümayiş olunur. Qızıl zallarda qədim köçərilərin unikal tapıntıları, o cümlədən İssık kurqanından tapılan "Qızıl Adam", etnoqrafiya zalında isə ənənəvi qazax geyimləri, zərgərlik əşyaları, yurt və məişət əşyaları nümayiş olunur. Müstəqil Qazaxıstan və Astana ilə bağlı sərgilər xüsusilə maraqlıdır: burada ölkənin və onun gənc paytaxtının inkişaf tarixi fotoşəkillər, maketlər, arxiv sənədləri və multimedia panelləri vasitəsilə açıqlanır. Türk dünyasının orta əsr tarixinə və mənəvi irsinə həsr olunmuş eksponatlar sırasında yazılı Qazax ədəbiyyatının banisi və mütəfəkkiri Abay Kunanbayevin təhsildəki və milli kimliyin formalaşmasındakı rolunu əks etdirən eksponatlar, əlyazmalar və sənədlər nümayiş olunur.

Qızıl Zalda Qızıl Orda və Qazax xanlığı dövrünə aid artefaktlar maraq doğurur. Sərgilər elmə və dövlətçiliyə əvəzsiz töhfələr vermiş Əl-Fərabi, Ablay xanın və Şokan Valixanovun adları ilə bağlıdır.

### "GƏLƏCƏYİN ŞƏHƏRİ"

Astanada köçəri mədəniyyəti gələcəyin memarlıq üslubunda tikilmiş binalar və innovativ texnologiyalarla bir arada inkişaf edir. 2026-cı il Qazaxıstanda "Rəqəmsallaşdırma və Süni İntellekt İli" elan edib. Bu baxımdan Astanada Gələcəyin Mərkəzi: alem.ai qazaxıstanlılar üçün Süni İntellekt Muzeyinin qapılarını açıb. Bu, adi muzey yox, daha çox texnologiya və Sİ təcrübə mərkəzi kimidir.

### SÜNİ İNTELLEKTLƏ SÖHBƏT

Birinci mərtəbə hər kəs üçün açıq məkandır. Ziyarətçilər dombra və şahmat oynayan robotları görə, rəqəmsal muzeyi araşdıra və hətta süni intellektlə qarşılıqlı əlaqədə ola bilərlər.

Bu, ziyarətçilərin süni intellektlə sözün əsl mənasında "söhbət etdiyi" bir muzeydir. Virtual bələdçi Ayla təkcə sualları cavablandırmır, həm də ziyarətçiləri dəhlizlərdə istiqamətləndirir və əsas qurğuları göstərir.

Əsas sərgi süni intellektin gələcəyinə və cəmiyyətə təsirinə həsr olunmuş süni intellekt (Sİ) interaktiv sərgisidir. Burada ilk hesablama cihazlarından müasir sistemlərə qədər texnologiyanın tarixi nümayiş etdirilir. Ziyarətçilər Apple II və IBM inkişafları da daxil olmaqla əfsanəvi kompüterləri görə və süni intellektin inkişafındakı əsas mərhələlər haqqında məlumat əldə edə bilərlər. Ayrı-ayrı zonalar süni intellektin artıq gündəlik həyata necə təsir etdiyini nümayiş etdirir və interaktiv qurğular ziyarətçilərə alqoritmlərin insan emosiyalarını necə təhlil etdiyini real vaxt rejimində görməyə imkan verir: sistem üz ifadələrini oxuyur və sakitlikdən sevincə qədər əhval-ruhiyyəni müəyyən edir.

Yuxarıdakı mərtəbələrdə təhsil və tədqiqat ekosistemi yerləşir. Xüsusilə, TUMO Astana yaradıcı texnologiya mərkəzi yeniyetmələrə proqramlaşdırma və robototexnika öyrədir. Bələdçi izah etdi ki, buradakı dərslər tamamilə pulsuzdur: "Biz uşaqların yalnız öyrənə bilmədiyi, həm də gələcəyin bacarıqlarını inkişaf etdirə biləcəyi bir mühit yaradırıq - proqramlaşdırmadan yaradıcı sənaye sahələrinə qədər..."

Mərkəz "gələcəyin şəhəri" adlandırılan genişmiqyaslı platformanı təqdim edir, təhsil və elmdən startaplara və rəqəmsal muzeyə qədər bir neçə sahəni birləşdirir.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
26 İYUN CÜMƏ 2026
www.kaspi.az

Yay transfer dövründə Ağdam klubunun ciddi yenilənmə prosesinə başlaması gözlənilən idi. Klub rəhbərliyi və baş məşqçi Qurban Qurbanov anlayırdı ki, eyni heyətlə əvvəlki uğurları təkrarlamaq çətin olacaq.

# “QARABAĞ” YENİLƏNMƏ YOLUNDA



Azərbaycan futbolunda son illərin ən böyük hadisələrindən biri 2025/26 mövsümündə baş verdi. Uzun illər ölkə futbolunda hegemonluq edən “Qarabağ” mövsümü titulsuz başa vurdu. Ağdam təmsilçisi Avropada tarix yazaraq UEFA Çempionlar Liqasının liqa mərhələsindən pley-off mərhələsinə yüksəlməyi bacarsa da, ölkə daxilində gözlənilməz uğursuzluqlarla üzləşdi. Komanda Premyer Liqada çempionluğu “Sabah”a uduzdu, Azərbaycan Kubokunda yarımfinalda da eyni rəqibə məğlub olaraq mübarizəni dayandırdı.

### YENİLƏNMƏ ZƏRURƏTİ

Bu baxımdan, yay transfer dövründə “Qarabağ”ın ciddi yenilənmə prosesinə başlaması gözlənilən idi. Klub rəhbərliyi və baş məşqçi Qurban Qurbanov anlayırdı ki, eyni heyətlə əvvəlki uğurları təkrarlamaq çətin olacaq. Komandada həm fiziki, həm də psixoloji yorğunluq hiss olunurdu. Bir sıra futbolçular illərlə qazanılan uğurlardan sonra əvvəlki motivasiyanı itirmiş təsiri bağışlayırdı. Digər tərəfdən, Avropadakı uğurlu çıxışdan sonra bəzi aparıcı oyunçular xaricdən sərfəli təkliflər almağa başlamışdı. Mütəxəssislərin fikrincə, bu, onların tam olaraq Ağdam təmsilçisinə fokuslanmasına imkan vermirdi. Belə vəziyyətdə kollektivə yeni nəfəs, enerji və rəqabət gətirmək zərurətə çevrilmişdi.

## Dəyişikliklərin ilk dalğası

Transfer bazarında ilk növbədə ayrılıqlar diqqət çəkdi. Son illərdə komandanın əsas simalarından olan Toral Bayramov, Kevin Medina və Emmanuel Addainin gedişi ən çox müzakirə olunan hadisələrdən oldu. Toral yeni mövsümdən legioner həyatı yaşayacaq. Milli komandamızın üzvü Türkiyənin “Bursaspor” klubu ilə müqavilə imzaladı. Addai və Medina isə komandadan azad agent kimi ayrılıblar. Emmanuelin adı “Böyük beşlik” ölkələrinin klubları ilə yanaşı hallanırsa, Kevin Asiyaya üz tutacaq. Adıçəkilən futbolçulardan başqa qapıçılar - Fabian Buntiç və Amin Ramazanov, hücumçu Ramil Şeydayev yola salınıb, müdafiəçi Sami Mmae isə müqavilə ilə məxsus olduğu Zaqreb “Dinamo”suna qayıdıb. Marko Yankoviç, Leandro Andrade kimi oyunçuların da komandanı tərk etmək ehtimalının olduğu bildirilir. Ötən mövsüm seyvləri ilə Çempionlar Liqasında diqqət çəkən Mateuş Koxalskinin də Ağdam klubundan getmək istədiyi ilə bağlı məlumatlar var. Eyni zamanda, bir müddət əvvəl əvəzedici heyətə göndərilən Abbas Hüseynov və Elvin Cəfərquliyevin də komandanı tərk edəcəyi iddia edilir. Düzdür, Elvin Avstriya toplanışına aparılıb və baş məşqçinin onu bağışladığı bildirilir. Bununla belə, futbolçunun legioner həyatı yaşamaq ehtimalı da yüksək qiymətləndirilir. Abbas isə Avstriyaya gedən heyətdə yoxdur.

### YENİ TRANSFERLƏR GÖSTƏRİR Kİ...

Yeni transferlər isə göstərir ki, “Qarabağ” bütün mövqeləri gücləndirməyə çalışır. İsveçin “Yurqorden” klubundan transfer olunan Zakaria Savo mərkəz hücumçusu mövqeyində rəqabəti artırmalıdır. Fiziki gücü və hərəkətli oyunu ilə seçilən futbolçu komandanın hücum xəttinə fərqli xüsusiyyətlər gətirə bilər. Sol cinah üçün heyətə cəlb edilən Jali Muaddib isə sürətli və texnikalı oyunçu kimi tanınır. O, artıq əvvəlki performansını göstərə bilməyən Abdullah Zubiri əvəz etməlidir. Bundan başqa, qapı xəttinə hazırda Bosniya və Herseqovina millisinin heyətində dünya çempionatında olan Martin Zlomisliç transfer olunub. Bruno Lanqa müdafiəni, Samuel Lobato isə yarımmüdafiəni gücləndirməlidir.

## Transfer pəncərəsi hələ bağlanmayıb

“Qarabağ”ın transferləri hələ tamamlanmış hesab edilmir. Bir neçə aparıcı futbolçuya xarici klublardan marağın olduğu bildirilir. Klubun bəzi təklifləri dəyərləndirdiyi, müəyyən mövqelər üçün isə yeni namizədlər üzərində işlədiyi məlumdur. Xüsusilə, müdafiənin mərkəzi, cinah hücumçuları və hücum xəttində əlavə dəyişikliklərin baş verməsi ehtimalı yüksək görünür. Avqustun sonuna qədər heyətin bugünkü görünüşü tamamilə dəyişə bilər.

Ötən mövsüm cəlb olunan bəzi futbolçuların gözləntiləri doğrultmaması klub rəhbərliyini daha diqqətli olmağa vadar edir. Komanda artıq yalnız keyfiyyətli futbolçu almağa deyil, eyni zamanda kollektivə uyğun oyunçu seçməyə çalışır. Yeni transferlərin fərdi keyfiyyətləri ilə yanaşı sistemə uyğunluğu da vacibdir. Bu baxımdan yayda edilən dəyişikliklər komandanın yaş balansını yeniləməyə və rəqabəti artırmağa hesablanıb.




## Yeni mövsümə fərqli ovqatda

Yenilənmənin əsas məqsədi ölkə futbolunda liderliyi geri qaytarmaqdır. Klub yeni mövsümə çempionluq iddiası ilə başlayacaq və “Sabah”ın yaratdığı rəqabət fonunda bu mübarizə artıq indidən böyük maraq vəd edir. Avropada isə əsas məqsəd UEFA Avropa Liqasının əsas mərhələsinə yüksəlməkdir. Ağdam təmsilçisi mübarizəyə İslandiyanın “Vestri” klubu ilə başlayacaq. Rəqib kağız üzərində “Qarabağ”dan xeyli zəif görünür və bu amil yeni transferlərin komandaya uyğunlaşmasında, oyun üslubunun formalaşmasında ağdamlılara kömək edə bilər.

Bir sözlə, “Qarabağ” yeni mövsümə əvvəlki illərdən fərqli ovqatda daxil olur. İndi komanda özünü yenidən sübut etməyə çalışır. Yayda başlanan dəyişikliklər göstərir ki, klub rəhbərliyi ötən mövsümün yekunlarından narazıdır və müəyyən nəticələr çıxarılıb.